RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 279 (8302) BAZAR, 15 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Dövlət hər zaman vətəndaşının yanındadır

İlham Əliyevin qarşıya qoyduğu əsas məqsəd və vəzifələrdən biri qazanılan sosial-iqtisadi uğurların daha da sürətləndirilməsi və miqyasının genişlənməsidir. Bu sahədə prioritetlərdən biri də regionların davamlı yüksəlişidir. Təsadüfi deyil ki, indi hansı rayona, hətta ucqar kəndlərə belə baş çəksən, quruculuq işlərinin şahidi olarsan. Bu günlərdə Prezident İlham Əliyevin Şamaxı rayonuna səfəri göstərdi ki, regionları əhatə edən inkişaf prosesləri, abadlıq və quruculuq işləri davamlı və sistemlidir.

## Bir ildə 4 səfər

Ölkənin bütün rayonları kimi, Şamaxıda da son illərdə möhtəşəm iqtisadi, sosial və infrastruktur layihələri həyata keçirilib. Regionların sosial iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bu rayonun da yüksəlişi təmin edilib.

Belə ki, dövlət proqramlarının icrası nəticəsində Şamaxıda bir sıra sosialyönümlü infrastruktur layihələri yerinə yetirilib, o cümlədən Müalicə-Diaqnostika Mərkəzi, şəhər İncəsənət Təhsil Mərkəzi, əlil və şəhid ailələri üçün ümumilikdə 48 mənzilli 3 yaşayış binası inşa edilib, Olimpiya Mərkəzi, rayon Mərkəzi Xəstəxanası, Cümə Məscidi, Nəsirəddin Tusi adına Astrofizika Rəsədxanası, Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq-Gənclər Şahmat Məktəbi, rayon Mədəniyyət Mərkəzi əsaslı təmir olunub, 44 ümumtəhsil müəssisəsi istifadəyə verilib. Şəhərin içməli su təchizatı sistemi yenidən qurulub, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılıb, iri istehsal müəssisələri yaradılıb, on minlərlə yeni iş yeri açılıb. Bundan başqa, turizm sahəsinin inkişafı ilə bağlı mühüm layihələr həyata keçirilib, ən müasir tələblərə cavab verən turizm mərkəzləri yaradılıb, Dəmirçi kəndində müasir turizm infrastrukturu, Arxeologiya Muzeyi, 620 hektar sahədə Şamaxı Safari Parkı yaradılıb. İsmayıllının Lahıc qəsəbəsini Şamaxı rayonu ilə birləşdirən Dəmirçi-Lahıc avtomobil yolunun istifadəyə verilməsi isə bölgənin turizm imkanlarını daha da gücləndirib.

Bu, dövlət başçısının il ərzində Şamaxıya sayca üçüncü səfəri idi. Məlum olduğu kimi, bu il fevralın 5-də və 6-da baş vermiş zəlzələ nəticəsində Şamaxı rayonunda fərdi evlər qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, təbii fəlakətdən dərhal sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilmiş, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilmişdir.

Ardı 2-ci səh.

# Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Qazaxıstan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Qardaş Qazaxıstan müstəqillik illərində dinamik və hərtərəfli inkişaf yolu keçərək həyatın bütün sahələrində mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır.

Əminəm ki, xalqlarımızın iradəsindən qaynaqlanan dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi, strateji tərəfdaşlığımız bundan sonra da əməkdaşlığımızın bütün sahələrdə müvəffəqiyyətlə davam etdirilməsi üçün geniş imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2019-cu il*

# Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Bəhreyn arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2019-cu il*

# S.N.Cabbarovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Siraqəddin Nəcəf oğlu Cabbarov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2019-cu il*

# Jan-Pyer ALLALİ: "Azərbaycanın hər bir uğurunda xalqın böyük oğlu Heydər Əliyevin imzası görünür"

Azərbaycanın hər bir uğurunda xalqın böyük oğlu Heydər Əliyevin imzası görünür. Heydər Əliyev Azərbaycanı üzləşdiyi çətinliklərdən xilas edib. Qanlı Yanvar hadisələrində o, xalqını unutmadı. Ölkənin iqtisadi baxımdan çətin vəziyyətdə olduğu, Azərbaycana qarşı torpaq iddiasında olan Ermənistanla münaqişənin gərgin anlarında Heydər Əliyev hakimiyyətə qayıdıb. O, ölkənin ən çətin anlarında xalqının yanında olub və onu xilas edib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Fransa Yəhudi İnstitutları Təmsilçiləri Şurasının sabiq sədr müavini Jan-Pyer Allali deyib.

Jan-Pyer Allali qeyd edib ki, Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan müstəqilliyini qoruyub saxlayıb. Hazırda onun siyasətini davam etdirən Prezident İlham Əliyevin sayəsində bu müstəqillik möhkəmlənib, ölkə gündən-günə inkişaf edir.

# Xristian Yohannes HENRİX: "Azərbaycanda həyata keçirilən islahatlar ölkənin daha da inkişafını təmin edəcək"

Cənub-Şərqi Avropa və Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri doktor Xristian Yohannes Henrix Azərbaycanın beynəlxalq münasibətlərdə rolu, multikulturalizm siyasəti, son vaxtlar ölkəmizdə həyata keçirilən islahatlar ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb. Müsahibəni təqdim edirik.

*- Cənab Xristian Yohannes Henrix, siz Cənub-Şərqi Avropa və Qafqaz Araşdırmalar Mərkəzinin rəhbəri kimi uzun illərdir ki, Qafqaz regionu ilə bağlı araşdırmalar aparırsınız. Almaniyada Qafqazı yaxından tanıyan elm adamı kimi Azərbaycanın beynəlxalq münasibətlərdə rolunu necə dəyərləndirirsiniz?*

- Həqiqətən də Azərbaycan beynəlxalq münasibətlər sistemində önəmli rola malikdir, Avropanın təhlükəsizlik siyasətinə mühüm töhfələr verir. Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramında fəal iştirak edir. Həmçinin üzvü olduğu GUAM vasitəsilə regionun təhlükəsizlik siyasətində xüsusi rol oynayır. Təbii olaraq, Azərbaycan ilə Türkiyə arasında da təhlükəsizlik məsələlərində sıx əlaqələr mövcuddur və bu əlaqələr, eyni zamanda, Azərbaycanın Qərblə münasibətlərini möhkəmləndirir.

Ardı 3-cü səh.

# İnsani dəyərlərə sadiqlik

Prezident İlham Əliyevin həyata keçirdiyi demokratikləşmə prosesi hüquqi, siyasi, iqtisadi və sosial olmaqla həyatın bütün sferalarını əhatə edir

**Demokratik proseslərin və milli inkişafın ən vacib şərti kimi qəbul olunan insan hüquqlarına hörmət və onların müdafiəsi hər bir dövlətin ali vəzifəsidir. İnsan hüquq və azadlıqlarının müdafiəsi ilə layiqli həyat səviyyəsinin təmin olunması bir-birindən ayrılmaz, qarşılıqlı asılılıqda olan anlayışlardır.**

Mütərəqqi hüquqi islahatların həyata keçirildiyi ölkələrdə iqtisadi və sosial rifahın daha yüksək səviyyədə təmin olunması əksər dövlətlərin təcrübəsində öz təsdiqini tapıb.

## Dövlətin ali məqsədi

İnsan hüquq və azadlıqlarının, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi Azərbaycan dövlətinin də ali məqsədidir. Dövlət heç bir ayrı-seçkiliyə yol vermədən hər kəsin hüquqlarının qorunmasına təminat verir və insanların ictimai həyatda fəal iştirak etməsi üçün əlverişli şərait yaradır.

Hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycan insanların layiqli həyat şəraitinin, rifah səviyyəsinin, cəmiyyətdə özlərini təsdiqetmə imkanlarının artırılması üçün ciddi səy göstərir. Ölkə rəhbərliyi tərəfindən məqsədli və planlı şəkildə həyata keçirilən demokratikləşmə prosesi sosial, hüquqi, siyasi, iqtisadi olmaqla cəmiyyət həyatının bütün sferalarını əhatə edir.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoyaraq hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan verdi.

Ardı 2-ci səh.

◆İlə yekun vurulur

# Pensiyaların avtomatlaşdırılmış, müavinətlərin elektron təyinatı özünü doğruldur

**2019-cu ildə sosial sahədə e-texnologiyaların tətbiqinə geniş yer verilmişdir. Azərbaycanda ilk sosial reyestr olan "E-sosial" internet portalının tətbiqi davam etmiş, pensiyaların avtomatlaşdırılmış, müavinətlərin elektron təyinatı işlərinə başlanmışdır. Bunlar Prezident İlham Əliyevin sosial sahəyə aid sərəncam və tapşırıqları çərçivəsində icra olunmuşdur.**



"E-sosial" internet portalı ölkəmizdə ilk sosial reyestrdir. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli fərmanına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hazırladığı bu portal özündə 16 elektron altsistemi və 2 reyestri birləşdirir.

Ardı 2-ci səh.

# Beynəlxalq tədbirlərdə ölkəmizin taleyüklü məsələsinə daim diqqət çəkilir

**İlham ƏLİYEV:** "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır"

*Bakıda keçirilən Dünya dini liderlərinin İİ Sammiti bir sıra qlobal problemlərin həllinə töhfə olacaq - "Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu", "Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi", "Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə", "Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti" kimi vacib mövzular ətrafında ciddi müzakirələr aparıldı.*

Əlbəttə, hər bir beynəlxalq tədbirdə olduğu kimi, Azərbaycanın dövlət başçısı fürsətdən istifadə edərək bu dəfə də dünyada baş verən hadisələr fonunda ölkəmizin bütün sahələrdə əldə etdiyi uğur və nailiyyətlərdən söz açdı, həlli vacib məsələləri diqqət mərkəzinə gətirdi. Həmin məsələlərdən biri də Ermənistanın təcavüzkar siyasəti, ərazilərimizin işğalı və bunun nəticəsində bir milyon azərbaycanlının öz tarixi yurdlarından zorla qovularaq qaçqın və köçkün şəraitində yaşamağa məcbur olmasıdır.

Beynəlxalq tədbirdə bir məqam xüsusi vurğulandı: "Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik".

Ardı 3-cü səh.

# İnsani dəyərlərə sadiqlik

## Prezident İlham Əliyevin həyata keçirdiyi demokratikləşmə prosesi hüquqi, siyasi, iqtisadi və sosial olmaqla həyatın bütün sferalarını əhatə edir

*Əvvəli 1-ci səh.*

Mühüm normativ hüquqi aktlar və dövlət proqramları qəbul edilib, insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirildi.

1998-ci ildə Ulu Öndər tərəfindən imzalanan "İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman və "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin edib.

### Şərqdə ölüm cəzasını ləğv edən ilk ölkə

Azərbaycan Şərqdə ilk dəfə ölüm cəzasını ləğv edən ölkə kimi tarixə düşüb. Yüksək humanizmin və insanpərvərliyin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırıb.

Dahi liderin siyasi xəttini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilib. İnsan hüquqlarının qorunmasını və bu sahədə görülən tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlayan dövlət başçısının "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq olunması haqqında" 2006-cı il 28 dekabr tarixli sərəncamından irəli gələn vəzifələrin icrası ölkəmizdə insan hüquq və azadlıqlarının davamlı inkişafına zəmin yaradıb.

Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. 2011-ci ildə təsdiq edilən Milli Fəaliyyət Proqramı ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini daha da artırıb.

2011-ci ildə isə Prezidentin imzaladığı sərəncamla ölkədə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə Milli Fəaliyyət Proqramı hazırlanıb. İnsan hüquqları aylığı çərçivəsində bu proqramın müddəalarına əsaslanmaqla ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mər-



hələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunub.

### Hər kəsə örnək olacaq vətəndaş məsuliyyəti

Ölkəmizdə dövlət hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. İstisnasız olaraq hakimiyyətin bütün qollarına şamil edilən bu öhdəlik insan və vətəndaş hüquq və azadlıqlarına hörmət etmək, onları müdafiə etmək, dəstəkləmək, eləcə də həyata keçirmək vəzifələrini ehtiva edir.

Prezident İlham Əliyevin ali və mühüm demokratik keyfiyyətlərindən biri də məhz onun idarəçilikdə daim sosial ədalət, düzgünlük və humanist prinsiplərə istinad etməsidir. Yüksək daxili demokratizmi, hər kəsə örnək olacaq vətəndaşlıq məsuliyyəti ilə yeni mərhələdə insani dəyər və azadlıqlara sadiqlik nümayiş etdirən cənab İlham Əliyev Azərbaycanın perspektiv inkişaf prioritetlərini düzgün müəyyənləşdirir.

Qoşulmama Hərəkatının Bakıda keçirilən Zirvə görüşündəki nitqində cənab İlham Əliyev bu məsələyə toxunaraq vurğulamışdır ki, Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri var: "Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur".

Azərbaycan insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində bir çox beynəlxalq sənədə tərəfdar çıxıb və bu sahədə öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib.

Təbii ki, görülən işlər və aparılan islahatlar, idarəetmənin təkmilləşməsi insanların öz hüquqlarını həyata keçirməsi üçün böyük imkanlar yaradır. Bu səbəbdən Azərbaycana beynəlxalq aləmin marağı daha da artır və ölkəmiz bir sıra beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir. Vətəndaşların hüquq və azadlıqlarının daha yüksək səviyyədə qorunması istiqamətində işlər davam etdirilir. Odur ki, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi və digər məsələlər ölkəmizdə insan hüquqlarına verilən dəyərin əsas göstəricisidir.

### Humanizmə sadiqlik ənənəsi

Konstitusiyamızın ana xətti və mahiyyəti beynəlxalq normalara, əsas insan hüquq və azadlıqlarına uyğundur. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir və Prezident İlham Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu uğurla həyata keçirilir. Azərbaycan insan hüquq və əsas azadlıqlarının qorunmasına təminat kimi demokratik idarəetmə və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsini alternativsiz yol kimi seçib. 2002-ci, 2009-cu və 2016-cı illərdə referendum yolu ilə Konstitusiyaya bir sıra mühüm əlavə və dəyişikliklər edilməsi mütərəqqi xarakter daşımaqla insan və vətəndaş hüquqlarının daha səmərəli qorunmasına, vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsinə, demokratiyanın genişlənməsinə və inkişafına yönəlib.

Qeyd edək ki, Azərbaycan Konstitusiyası dünyada ən mütərəqqi, insan hüquq və azadlıqlarına hörmət edən və onu təmin edən konstitusiyalardan biridir. Bu sənəddə 47-yə yaxın maddə insan hüquq və vətəndaş azadlıqlarının təminatına həsr olunub.

Azərbaycan müstəqillik yoluna qədəm qoyduqdan sonra ölkəmizdə insanlıq və humanizm prinsiplərinə xidmət edən xeyirxah əməllərin çox şahidi olmuşuq. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş humanizmə sadiqlik ənənəsi bu gün də davam etdirilir. Prezident İlham Əliyev demək olar ki, ildə bir neçə dəfə "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamlar imzalayır. Dövlət başçısının humanizm prinsiplərinə əsaslanaraq imzaladığı əfv sərəncamları insan hüquq və azadlıqlarının müdafiəsi, demokratik prinsiplərin inkişafı, insan amilinə diqqətin yüksəldilməsi ideyasının dövlət siyasətində prioritet təşkil etdiyinin sübutudur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanan və böyük mənəvi-əxlaqi, siyasi məzmun daşıyan 11 amnistiya aktı, imzalanan 65 əfv sərəncamı ilə minlərlə insana bəxş edilən azadlıq həm Azərbaycan ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir, həm də beynəlxalq səviyyədə təqdir olunur.

Bir sözlə, Azərbaycan həm insan hüquqlarının yüksək səviyyədə qorunduğu, həm də milli-mənəvi dəyərlərə böyük önəm verildiyi unikal ölkələrdəndir. Dövlət haqq və ədalət, tolerantlıq prinsiplərinə söykənərək ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində davamlı olaraq strateji sənədlər qəbul edir. Ölkəmizdə müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların, həmçinin kütləvi informasiya vasitələrinin azad fəaliyyəti üçün yaradılmış şərait ölkədə siyasi plüralizmin, fikir azadlığının, demokratiyanın bərqərar olduğunu təsdiqləyir.

Kimliyindən, tutduğu mövqedən asılı olmayaraq hər bir vətəndaşın dərd-səri, qayğıları, problemləri Prezident İlham Əliyevin diqqətində və nəzarətindədir. Vətəndaşlarla səmimi görüşlər keçirməsi, onların problemlərini dinləməsi və həll olunması üçün müvafiq göstərişlər verməsi, bağışlamaq böyüklüyü cənab İlham Əliyevin ölkə rəhbəri kimi hər zaman vətəndaşının yanında olduğunu, siyasətinin mərkəzində vətəndaşın dayandığını təsdiq edir. Bütün bunlar deməyə əsas verir ki, daim vətəndaşla birgə olmaq cənab İlham Əliyevin həyat amalına çevrilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dövlət hər zaman vətəndaşının yanındadır

*Əvvəli 1-ci səh.*

Fevralın 7-də Prezident İlham Əliyev zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Dövlət başçısı elə yerindəcə əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Şamaxı şəhərində sakinlərlə söhbət zamanı Prezident İlham Əliyev dövlətin zəlzələnin nəticələrinin aradan qaldırılmasını öz üzərinə götürdüyünü və bütün qəzalı evlərin qısa müddət ərzində ya bərpa ediləcəyini, ya da yenidən tikiləcəyini bildirmişdi.

Martın 7-də Şamaxıya səfər edən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni inşa edilmiş evlərlə, o cümlədən Saray nənənin evi ilə tanış oldular, sakinlərlə söhbət etdilər. Bu ilin sentyabrında isə Birinci vitse-prezident Mehriban Əliyeva zəlzələ baş verən rayonlara, o cümlədən Şamaxıya səfər etmişdi. Səfərin məqsədi ilk növbədə ötən müddətdə zəlzələ bölgəsində görülmüş işlərlə tanışlıq idi.

Bütövlükdə bu səfərlərin hər biri çox xoş və mühüm təəssüratlarla əlamətdar oldu. Ən əsası isə odur ki, bu səfərlərin hər biri regionların inkişafının, xüsusən zəlzələnin nəticələrinin aradan qaldırılmasının ölkə rəhbərliyinin xüsusi diqqət mərkəzində olduğunu göstərdi.

### Bütün regionlar ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub

Prezident İlham Əliyevin Şamaxı rayonuna dekabrın 5-6-da etdiyi səfər bir daha göstərdi ki, regionların infrastrukturunun müasir standartlara uyğun qurulması, rayonların iqtisadi potensialından səmərəli istifadə edilməsi və turizmin inkişafı dövlət siyasətinin prioritetlərindən biridir. Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışı təsdiq edir ki, ölkənin yol-nəqliyyat infrastrukturunda aparılan işlər davamlı xarakter daşıyır.

Dövlət başçısının Şamaxıda açılışında iştirak etdiyi "ASAN Həyat" kompleksi isə Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcək. Bu mərkəzdə müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət həyata keçiriləcək.

Təbii ki, Prezidentin Şamaxı səfərində əsas məqsədlərindən biri zəlzələ bölgəsində görülən işlərlə tanış olmaq idi. Budəfəki səfər zamanı dövlət başçısı zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış oldu. Şamaxı sakini Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlanan Prezident Azərbaycan dövlətinin hər zaman vətəndaşının yanında olduğunu bəyan etdi: *"Mən bu il üçüncü dəfədir ki, Şamaxıdayam. Birinci dəfə o bədbəxt hadisə ilə əlaqədar gəlmişdim, fevral ayında, zəlzələ baş verəndən sonra. Müvafiq təlimatlar verildi. Bütün qüvvələr səfərbər olundu. İkinci dəfə mart ayında gəlmişdim. Artıq birinci evlərin tikintisini də qeyd etdik. Göstəriş verdim ki, maksimum çalışmalıyıq ilin sonuna qədər bütün evlər tikilsin. Şadam ki, buna nail olmuşuq. Bu da əslində misli görünməmiş məsələdir. Çünki 10 ay ərzində bütün fərdi evlər tikildi, təmir olundu. İndi düzdür, bəzilərinin tikintisi davam edir. Hündürmərtəbəli, 174 mənzilli üç bina, o cümlədən bu bina. Təkcə Şamaxı rayonunda yox, Ağsuda, İsmayıllıda da böyük işlər görülübdür. Bütün bunları biz dövlətin vəsaiti hesabına etdik. Bir daha göstərdik ki, Azərbaycan dövləti hər zaman Azərbaycan vətəndaşının yanındadır".*

Zəlzələdən sonra təkcə Şamaxı rayonu üzrə 580 fərdi ev, 44, 20 və 110 mənzildən ibarət hündürmərtəbəli üç bina tikilib. 1175 evdə isə bərpa işləri aparılıb ki, onların da hamısı yenidən tikilmiş evlərə bərabərdir.

Xatırladaq ki, zəlzələnin fəsadlarının aradan qaldırılmasında Heydər Əliyev Fondu da yaxından iştirak edir. Fondun "Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkən ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar. Dövlət xətti ilə görülən işlərdən başqa Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı, eləcə də, İsmayıllı və Ağsu rayonlarında sakinlər üçün fərdi evlər tikilib.

Dekabrın 6-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar. Bu türbənin ətrafında görülən bərpa işləri ölkə rəhbərliyinin milli-mənəvi dəyərlərə, tarixi abidələrə yüksək ehtiramının növbəti göstəricisidir.

İlham Əliyevin Şamaxıya növbəti səfəri xoş və mühüm təəssüratlarla əlamətdar oldu. Dekabrın 6-da Mehriban Əliyevanın təşəbbüsü ilə Şamaxıda Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ağacəkmə kampaniyasının başlanması isə ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı. Bütövlükdə Şamaxının timsalında vətəndaşlar bir daha bütün regionların ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunduğunu gördülər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Pensiyaların avtomatlaşdırılmış, müavinətlərin elektron təyinatı özünü doğruldur

*Əvvəli 1-ci səh.*

"E-sosial" vətəndaşlara onlar barədə toplanmış sosial məlumatlar (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s. üzrə) bazasına çıxış imkanı yaradıb. Vətəndaş özü barədə portalda toplanmış məlumatları daimi izləyə bilir, yaranan sosial-əmək hüquqlarının təminatı prosesinə ictimai nəzarəti həyata keçirir. Portal vətəndaşa habelə nazirlik tərəfindən təqdim olunan 100-dən çox sosial xidmət növündən yaranmış hüquqları müqabilində çevik rejimdə yararlanmaq imkanı verir.

Portalın "Android" əməliyyat sistemi üçün mobil tətbiqi fəaliyyət göstərir. "İOS" əməliyyat sistemi üçün tətbiqin istifadəsi üçün işlər aparılır. Nazirliyin 2018-ci ilin noyabr ayından istifadəyə verdiyi e-sosial.az internet portalına baxış sayı 1 milyon 100 mindən çox olub. İstifadəçilərin sayı isə 105 mini ötüb.

2019-cu ilin əvvəlindən ölkəmizdə ilk proaktiv xidmət kimi, "E-pensiya" - pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib. Nəticədə pensiya hüququ yaranmış şəxsə özü müraciət etmədən və sənəd təqdim olunmadan, məmur-vətəndaş təması olmadan pensiya təyin edilir və ona bu barədə elektron qaydada məlumat verilir. İl ərzində pensiyaya çıxan vətəndaşlarımızın 80 faizi bu xidmətlə əhatə olunur.

Növbəti yenilik "E-müavinət"dir. 2019-cu ilin ilk aylarından sosial



müavinətlərin elektron təyinatı infrastrukturunun qurulması işlərinə də başlanıb. Onlardan uşağın doğulmasına görə birdəfəlik müavinətin e-təyinatı sistemi oktyabrın 11-də istifadəyə verilib və artıq e-qaydada 7600-ə yaxın bu növ təyinat aparılıb. Noyabrın 13-də isə sağlamlıq imkanları məhdud 18 yaşadək uşağa aylıq müavinət və həmin uşağa qulluğa görə Prezidentin aylıq təqaüdünün də elektron təyinatı mexanizmi hazırlanaraq işə salınıb. Bir sıra digər müavinət və təqaüd növü üzrə təyinat mexanizminin də elektronlaşdırılması planlaşdırılıb. Müavinət və təqaüdlərin təyinatında avtomatlaşdırma tədbirləri bitdikdən sonra illik təqribən 180 minədək müraciətin tam şəkildə, praktik qaydada, vətəndaşların hər hansı bir ünvana getmələrinə ehtiyac olmadan təmin edilməsi həyata keçiriləcək.

Günərzi qayğı, icma əsaslı sosial reabilitasiya və yardım mərkəzləri də sözügedən sahənin yeniliklərindəndir.

1 iyun 2019-cu il tarixli sərəncamla ayrılmış vəsait hesabına nazirliyin sosial sifarişləri üzrə layihələr əsasında yaradılan reabilitasiyayönümlü sosial xidmət mərkəzlərinin sayı 3,5 dəfədən çox artıb və 187 olub. Hazırda 70 günərzi qayğı mərkəzi, 46 icma əsaslı sosial reabilitasiya mərkəzi, autizm və daun sindromlu uşaqlar üçün yardım mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlər əsasən uşaqlardan ibarət 8 mindən çox şəxsə xidmət göstərir.

Digər yeniliklər də maraq doğurur. Məsələn, "Əmək müqavilələri bildirişləri altsistemi"nin məlumatına əsasən, 2019-cu ilin əvvəli ilə müqayisədə noyabrın 1-i tarixinə əmək müqavilələrinin sayı 145 min, aylıq əməkhaqqı fondu 34 faiz, median əməkhaqqı 37,2 faiz artıb. O cümlədən qeyri-dövlət sektoru üzrə əmək müqavilələrinin sayında artım 95 min, aylıq əməkhaqqı fondunda artım 35,3 faiz olub.

Övladlığagötürmədə yeni model tətbiq olunur. 10 dekabr 2018-ci il tarixli fərmanla nazirlik övladlığa götürülən uşaqlarla və övladlığa götürməyi arzu edən şəxslərlə bağlı uçot sisteminin təkmilləşdirilməsi, bu sahədə şəffaflığın təmin edilməsi, övladlığa götürülmüş uşaqların yeni ailələrdə yaşaması və inkişafı prosesinə nəzarətin gücləndirilməsi üçün qabaqcıl dünya təcrübəsi əsasında yeni idarəetmə mexanizmi hazırlayıb. Yeni idarəetmə uşaqların mənafelərinin üstünlüyü prinsipinə əsaslanır. "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsistemi də yaradılıb.

Qabaqcıl beynəlxalq təcrübədən irəli gələn müasir mexanizmlər əsasında əmək qanunvericiliyinin tətbiqinə dövlət nəzarəti sisteminin elektron nəzarət sistemi üzərindən həyata keçirilməsi təcrübəsinin, elektron protokol layihəsinin, risk əsaslı yoxlama mexanizminin tətbiqi nəzərdə tutulur.

Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılır. Observatoriya mütərəqqi dünya təcrübəsi əsasında təkmil monitorinq və proqnozlaşdırma sisteminin formalaşmasına imkan verəcək.

Əməkhaqların birgə maliyyələşdirilməsi proqramı 2020-ci ildən işə salınacaq. İşsizlikdən sığorta fondunda bununla bağlı ayrıca xərc istiqaməti var.

2019-cu il bir sıra mühüm tədbirlərlə də yadda qalacaq. Məsələn, mayın 14-16-da Bakıda Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) Avropa Regional Sosial Təminat Forumu keçirilib.

BSTA tərəfindən təşkilatın əhatə etdiyi ölkələrin (regionlar üzrə) sosial təminat sahəsində həyata keçirdikləri layihələrin qiymətləndirilməsi məqsədilə hər üç ildənbir "Yaxşı Təcrübə" müsabiqəsi keçirilir. Növbəti müsabiqədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi dörd layihənin hər biri uğurlu təcrübə nümunələri kimi xüsusi mükafatlara layiq görülüb. Bunlar ünvanlı dövlət sosial yardımı və əlilliyin qiymətləndirilməsi üzrə elektron sistemlər, özünüməşğulluq proqramı və qeyri-rəsmi məşğulluğun qarşısının alınması layihələridir.

Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, vətəndaşın rifahının təminatı prinsipinin dayandığını göstərir. Bu prinsip iqtisadi dividendlərin ilk növbədə əhalinin rifahına yönəldilməsini, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımların ardıcıl olduğunu təsdiqləyir. Bir daha xatırladaq ki, 2003-cü ildən ötən dövrdə əməkhaqların 7 dəfə, pensiyaların 9 dəfə, həssas qruplara yönələn sosial ödənişlərin dəfələrlə artırılması da bunu göstərir. Məşğulluq imkanlarının mütəmadi artırılması isə ölkədə işsizliyin kəskin şəkildə azalaraq 5 faizə enməsi ilə nəticələnib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Şavarşavan, Voskevan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli, Aşağı Əskipara və Bala Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# "Study UK Alumni Awards 2019"un qaliblərinin adları açıqlanıb








Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi "Study UK Alumni Awards 2019"un qaliblərinin adlarını açıqlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Qaliblər üç nominasiya (Peşəkar nailiyyət; Sahibkarlıq mükafatı; Sosial təsir mükafatı) üzrə iş adamı, sahibkar və ictimai xadim kimi əldə etdikləri mühüm nailiyyətlər, eləcə də Böyük Britaniya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlığın gücləndirilməsinə verdikləri mühüm töhfələr nəzərə alınmaqla "şort-list"ə düşən 10 namizəd arasından seçilib.

Britaniyanın Azərbaycandakı səfiri Ceyms Şarp tədbirdə çıxış edərək deyib ki, "Study UK" məzun mükafatlarının finalçılarını seçmək çox çətin idi. "Azərbaycanda Böyük Britaniyada təhsil almış və əldə etdikləri bilik və bacarıqlardan ölkələrinin inkişafını dəstəkləmək üçün istifadə edən bir çox istedadlı insan var. Onların hamısını alqışlayır və hər birinə böyük uğurlar arzulayıram", - deyə o qeyd edib.

"British Council" təşkilatının Azərbaycan üzrə direktoru Samr Şah çıxışında bildirib ki, bu ilin finalçıları yalnız Britaniya məzunlarının müxtəlifliyinin və onların göstərdikləri səylərin deyil, həm də Birləşmiş Krallığın təhsil sisteminin dünyanı dəyişən gücünün dəlilidir.

Təhsil naziri Ceyhun Bayramov bildirib ki, azərbaycanlı tələbələrin dünyanın ən yüksək səviyyəli təhsil müəssisələrində təhsil almaları qürurvericidir. Bu, Böyük Britaniya və Azərbaycan arasında əlaqələrin daha da inkişafına töhfə verir. Bu gün Azərbaycanda təhsilə böyük dövlət qayğısı var. Bu qayğıdan yararlanan gənclərimiz gələcəkdə ölkəmizin daha da inkişafına öz töhfələrini verəcəklər.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə gənclərimizin dünyanın ən qabaqcıl ölkələrinin ali təhsil müəssisələrində təhsil almalarının sevindirici olduğunu deyib.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli qalibləri təbrik edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Bu nüfuzlu beynəlxalq mükafat Britaniyanın ali təhsil imkanlarını və ölkənin bütün dünyadakı məzunlarının nailiyyətlərini qeyd etmək üçün nəzərdə tutulub. Təqdim edildiyi beşinci ildə bu mükafatı əldə etmək üçün 100-dən çox ölkədən olan və Birləşmiş Krallığın 120-dən artıq ali təhsil müəssisəsini təmsil edən 1200-dən çox Britaniya məzununun ərizəsi daxil olub.

"Study UK Alumni Awards"un hər kateqoriya üzrə qalibi 3000 funt sterlinq (6700 manat) məbləğində mükafat əldə edəcək. Onlar bu vəsaiti öz seçimləri əsasında peşəkar inkişaf imkanlarına sərf edəcəklər.

# Bakıda Azərbaycanın Rus İcmasının V qurultayı keçirilib

Bakıda Azərbaycanın Rus İcmasının V qurultayı keçirilib. 280 nümayəndənin iştirak etdiyi tədbir hakim Yeni Azərbaycan Partiyasının mərkəzi ofisinin akt zalında baş tutub.

AZƏRTAC xəbər verir ki, qurultay iştirakçıları Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Rus İcmasının qurultayında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdir müavini Məhərrəm Əhmədov, Milli Məclisin deputatları Arif Rəhimzadə, Əli Hüseynli, Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov, RF Prezidentinin regionlararası və xarici ölkələrlə mədəni əlaqələr üzrə İdarəsi rəisinin müavini Anton Rıbakov, Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev, Bakı və Azərbaycanın arxiyepiskopu Aleksandr və başqaları iştirak ediblər.

Azərbaycanın Rus İcmasının sədri, Milli Məclisin deputatı Mixail Zabelin qurultayın açılışında çıxış edərək qeyd edib ki, tədbir Azərbaycanda iqtisadi, sosial və siyasi sabitlik şəraitində keçirilir. O əlavə edib: "Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs əsasında Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən ardıcıl islahatlar bütün sahələrdə müsbət dəyişikliklərə gətirib çıxarıb. Müasir Azərbaycan əmin addımlarla irəliləyir, yerlərdə irimiqyaslı infrastruktur və regional layihələr həyata keçirilir". M.Zabelin qeyd edib ki, bu gün Azərbaycanda Rus İcmasının üzvlərinin sayı 60 min nəfərdir.




Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov qurultay iştirakçılarını salamlayaraq qeyd edib ki, onların hər biri Azərbaycan və Rusiya arasında sıx dostluq münasibətlərinə töhfə verir. O əlavə edib: "Bir səfir kimi məmnunluqla qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında münasibətlər olduqca sürətlə inkişaf edir. Deyərdim ki, bütün sahələr üzrə yüksəliş mərhələsindədir. Bu, ilk növbədə, Azərbaycan və Rusiya rəhbərlərinin böyük töhfəsi sayəsində baş verir. Onların keçirdikləri görüşlər, aralarında olan şəxsi ünsiyyət dövlət və ictimai təşkilatların fəaliyyətinə təkan verir".

Bakı və Azərbaycanın arxiyepiskopu Aleksandr çıxışında Rus İcmasının iki ölkə arasında dostluğun möhkəmlənməsində rolunu xüsusi olaraq qeyd edib.

Qurultayda İcmanın Respublika Şurasının yeni tərkibi seçilib. Təşkilatın sədri, Milli Məclisin deputatı Mixail Zabelin yenidən Azərbaycanın Rus İcmasının sədri vəzifəsinə seçilib.

Qeyd edək ki, Azərbaycanın Rus İcması 1993-cü ildə yaradılıb. İcmaya beş il müddətinə seçilən Respublika Şurası rəhbərlik edir. Rus İcmasının sonuncu qurultayı 2014-cü il noyabrın 14-də keçirilib.

Rus İcmasının nəzdində bir neçə təşkilat - Rus Mədəniyyəti Mərkəzi, Rusiyalı Həmvətənlərə İnformasiya-Hüquq Dəstəyi Məşvərət Məntəqəsi, Rusdilli Təhsil Müəssisələrinin Müəllimlərinin Assosiasiyası, Leninqrad Blokadası İştirakçıları Assosiasiyası, "Russki mir" iş adamları birliyi və s. daxildirlər.

# Gəncədə bir qrup şəhid ailəsinə və müharibə əlilinə mənzillər təqdim edilib

Gəncə şəhərində yaşayan bir qrup şəhid ailəsi və müharibə əlilinə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillər təqdim olunub.

Təqdimat mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri, eləcə də yeni mənzilə sahib olan şəhid ailələri və müharibə əlilləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, mənzillə təmin olunan şəhid ailələri sırasında Milli Qəhrəman Pərviz Səmədovun ailəsi də var. Onun həyat yoldaşı Mətanət Şahvələdovaya üçotaqlı mənzil təqdim olunub.

Tədbirdə vurğulanıb ki, dövlət başçısının sosial sahəyə xüsusi qayğısı həssas qrupların rifahının yaxşılaşdırılmasına xidmət edən mühüm proqramların ildən-ilə genişlənməsinə səbəb olub. 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlilləri və şəhid ailələrinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilib. 2019-cu ildə isə 934 mənzil verilməsi nəzərdə tutulub ki, onların da böyük hissəsi artıq verilib. Ümumiyyətlə, bu vaxtadək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7178 mənzil və fərdi ev təqdim edilib.

Yeni mənzillə təmin olunan vətəndaşlar əhalinin rifahının təminatı, həssas qruplara dövlət qayğısının artırılması sahəsində aparılan ardıcıl işlərə, müasir tələblərə uyğun yeni mənzillərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Xristian Yohannes HENRİX: "Azərbaycanda həyata keçirilən islahatlar ölkənin daha da inkişafını təmin edəcək"

*Əvvəli 1-ci səh.*

Bundan əlavə, ABŞ-la hərbi sahədə müxtəlif istiqamətlər üzrə birgə fəaliyyət, Pakistanla hərbi əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq münasibətlər sisteminin subyekti kimi vacibliyini göstərir.

Azərbaycanın beynəlxalq arenada digər vacib rolu onun enerji siyasəti ilə bağlıdır. Avropa İttifaqı (Aİ) ilə qaz nəqlini özündə əks etdirən strateji sənədlərin imzalanması Azərbaycanın Aİ-nin enerji siyasətində vacib tərəfdaş olduğunu göstərir. Bununla Azərbaycan Avropada vacib əhəmiyyət kəsb etməklə yanaşı, əlavə təsir imkanları da əldə etmiş olur. Bakı-Tbilisi-Ceyhan neft, "Cənub qaz dəhlizi"nin əsas seqmenti olan Trans-Anadolu (TANAP) qaz boru kəmərləri kimi layihələr Azərbaycanın enerji siyasətinin önəmli hissələrini təşkil edir. Bu layihələr Avropanın enerji təminatında asılılığın aradan qaldırılmasına kömək göstərir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropa-Qafqaz-Asiya istiqamətində nəqliyyat dəhlizinin bir hissəsidir və mühüm infrastruktur layihə olaraq Avropaya açılan əlavə qapıdır.

*- Son vaxtlarda Azərbaycanda dövlət idarəçiliyi sahəsində köklü islahatlar həyata keçirilir. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı.*

- Prezident İlham Əliyev tərəfindən bu islahatların həyata keçirilməsi beynəlxalq aləmdə də müsbət qiymətləndirilən addımdır. Müasir düşüncəli, yüksək səviyyəli təhsili olan gənc kadrların vəzifədə irəli çəkilmələri ortaya tam fərqli yanaşma qoyur. Prezident Əliyev bu məsələdə çox doğru addım atır. İdarəetmədə həyata keçirilən islahatlar yenilənməyə gətirib çıxaracaq və beləliklə, Azərbaycanın uğurlu bir ölkə kimi daha da inkişafını təmin edəcək.

*- Məlum olduğu kimi, multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Siz bu barədə nə düşünürsünüz?*

- Aydın məsələdir ki, multikulturalizm çox vacib bir mövzudur. Qafqaz regionuna nəzər saldıqda, Ermənistanın monoetnik ölkə olduğunu görürük. Misal olaraq, Ermənistan ərazisindəki kürdləri göstərmək olar. Burada yaşamış əksər kürdlər, demək olar ki, tamamilə o ölkədən köçməyə məcbur edilib, yerdə qalanları isə assimilyasiya siyasətinin qurbanı olublar. Eyni ssenari vaxtilə Ermənistanda yaşamış etnik azərbaycanlılar üçün də həyata keçirilib. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini beynəlxalq hüquq normalarına zidd olaraq işğal altında saxlayır. İşğal olunmuş ərazilərin sakinləri öz yaşayış yerlərini tərk etməyə məcbur edilib. Bu siyasət nəticəsində bu gün nə Ermənistanda, nə də işğal olunmuş Azərbaycan torpaqlarında heç bir azərbaycanlıya rast gəlinmir, bilavasitə etnik təmizlənmə və köçürülmə siyasəti həyata keçirilib. Azərbaycanda isə əksinə, 120 mindən çox erməni digər etnik azlıqlarla birgə yaşayır. Bir sözlə, Azərbaycan region üçün bir model ölkədir. Azərbaycanda tolerantlıq, multikulturalizmlə bağlı keçirilən tədbirlər xüsusi əhəmiyyətə malikdir. Belə tədbirlər, xüsusilə də Azərbaycandakı tolerantlıq dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

# Beynəlxalq tədbirlərdə ölkəmizin taleyüklü məsələsinə daim diqqət çəkilir

## İlham ƏLİYEV: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır"



*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti Dünya dini liderlərinin II Sammitindəki çıxışında onu da bildirdi ki, bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir: "...Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır".

Dövlət başçısı sammit iştirakçılarının nəzərinə çatdırdı ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə istinad ermənilər tərəfindən təhrif olunur. Belə ki, o zamanlar bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir: "...Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir: Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir. Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür".

Həmin ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılması haqqında açıq-aydın müddəalar var. Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin, nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir. Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

Qüds-Yerusəlimin ortodoks baş ravini Şlomo Amar belə tədbirlərin onların sıralarını artırdığını və daha çox sabitlik gətirdiyini vurğulayaraq dedi: "Azərbaycan dünya miqyasında elə bir ölkədir ki, burada bütün proseslər sabit, rəvan şəkildə həyata keçirilir. Prezident İlham Əliyev bu gün bir çox cəmiyyətlər üçün bir siyasi xadim kimi çox yaxşı nümunədir, öz fəaliyyəti ilə yaxşı örnəkdir. Biz görürük ki, burada dinlər arasında anlaşmaya xüsusi töhfə verilir. Siz, həmçinin xalqlar arasında da dostluq münasibətlərinin, sülhsevərlik mədəniyyətinin daha da inkişafına töhfə verirsiniz. Siz, əslində, öz səsinizlə bizim bu birliyimizi gücləndirirsiniz".

Sammit iştirakçılarının fikirlərini ümumiləşdirən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə vurğuladı ki, söz azadlığını nifrət çağırışlarına çevirənlərin əleyhinəyik: "Söz - Yaradanın insana əmanətidir, insan hər sözü üçün Allah qarşısında məsuliyyət və cavabdehlik daşıyır. Söz - Ana, Vətən, Nur, Məhəbbət, Cənnət də ola bilər, Söz - savaş, müharibə, ölüm, cəhənnəm də ola bilər. Bizim məqsədimiz təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq, İlahi Nurun ardınca getməyi Sözlə təbliğ etməkdir. Çünki bütün dini kitablarda deyildiyi kimi, iman gətirənlər qardaşdırlar! Hamımız babamız Adəmdən, Adəm isə torpaqdan yaranmışdır. Torpaq qardaşlarını birləşdirən cəhətlər isə onları ayıran və yadlaşdıran cəhətlərdən qat-qat üstün və dəyərlidir!"

Sammitdə yekdil qərara alındı ki, xüsusilə də Azərbaycan dini liderlər arasında körpü yaratmaq, dialoq yollarını gücləndirmək, müştərək insani dəyərləri dərinləşdirmək, multikulturalizm və dini dəyərlər vasitəsilə gənclərin düşüncəsini inkişaf etdirmək, həmçinin ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik bir ölkədir.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Dekabrın 14-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il 11 dekabr tarixli iclasının protokolu təsdiq olunub.

Sonra Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası, Böyük Quruluş Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Ümid Partiyası və Böyük Azərbaycan Partiyasının 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səlahiyyətli nümayəndələrinin qeydə alınmasına dair müraciətlərə baxılıb. Komissiya sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslərin səlahiyyətli nümayəndələr kimi qeydə alınmasına qərar verib.

İclasda dekabrın 23-də keçiriləcək bələdiyyə seçkilərinə hazırlıq istiqamətində müxtəlif məsələlərə dair statistik göstəricilər diqqətə çatdırılıb, həmçinin 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərlə bağlı nəzərdə tutulan genişmiqyaslı maarifləndirmə proqramı barədə ətraflı məlumat verilib.

### QƏRAR № 17/70

### Mərkəzi Seçki Komissiyasının 11 dekabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 11 dekabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/71

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası İdarə Heyətinin 2019-cu il 10 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Əli Zülfüqar oğlu İbrahimov
Etibar Oruc oğlu Nəsirov
Aydın Məlikməmməd oğlu Əkbərov
Yusif Hüseyn oğlu Süleymanov
Rauf Qarxun oğlu Mütəllimov
Nurəddin Səyyad oğlu Qocayev
Nübubət Rəhman qızı Namazova
Böyük Ağa Ənvər oğlu Babayev
Yeganə Kazım qızı Mehdiyeva

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
İlqar Əlixan oğlu Məmmədxanov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/72

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Böyük Quruluş Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Böyük Quruluş Partiyası Ali Məclisinin 2019-cu il 10 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Böyük Quruluş Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Cavid Cabbar oğlu İsmayıl
Oqtay Yusif oğlu Qasımov
Qasım Rza oğlu Şeyxov
Leyla İbrahim qızı Musayeva
Namiq Ziyadxan oğlu Göyüşov
Elşən Zöhrab oğlu Orucov
Fariz Mehdi oğlu Quliyev
Fazil Xalıq oğlu Kərimov

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
İlqar Qəzənfər oğlu Mustafayev
Kərim Məmməd Həsən oğlu Kərimov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/73

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Milli Dirçəliş Hərəkatı Partiyası Ali Məclisinin 2019-cu il 10 dekabr tarixli yığıncağının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Şakir Pünhan oğlu Ağayev
Tahir Tofiq oğlu Seyidov
Həsrət Əhməd oğlu Fərzəliyev

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Çingiz Yusif oğlu Əhədli

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/74

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Milli İstiqlal Partiyası Mərkəzi Şurasının 2019-cu il 10 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Milli İstiqlal Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Rəşad Aydın oğlu Bayramov
Xanmirzə Xanbala oğlu Məlikəliyev
Təyyar Həsən oğlu Həsənov
Elnarə Elman qızı Bayramova
Şükür Şakir oğlu Qəhrəmanov
Xəlil Naib oğlu Əsədov
Fidail Cəbrayıl oğlu İskəndərov
Qnyaz Yusif oğlu Yusifov

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Təbriz Səməndər oğlu Musayev
Vüqar Əhliman oğlu Kərimli

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/75

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Demokrat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Demokrat Partiyası Ali Şurasının 2019-cu il 11 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Demokrat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Həsrət Qurbanəli oğlu Rüstəmov
Taliyət Məhəmməd oğlu Əliyev
Daşqın Ağarza oğlu Nuriyev
Rəşid Mirəjdər oğlu Mənsurov
Elçin Əliqulu oğlu Eyyubov
Fariz İdris oğlu Məhərrəmov
Vüqar Mirhüseyn oğlu Cəfərov
Niyazi Cavad oğlu Qurban
Coşğun İsmayıl oğlu Qurbanov
Cəsur Tofiq oğlu Məmmədov
Mayis Kamal oğlu Məmmədov
Qalib Kamal oğlu Məmmədov
Elvin Şahin oğlu Heydərov
Elyar Həsən oğlu Mehdiyev

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Nizami Kamil oğlu Məmmədzadə

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/76

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Ümid Partiyası Ali Məclisinin 2019-cu il 7 dekabr tarixli sessiyasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Azərbaycan Ümid Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Əslan Seyran oğlu Əliyev
Adil Miriş oğlu Qulami
Salman Məhəmməd oğlu İmanlı
İmamverdi Səməd oğlu Verdiyev
Qasım Rəhim oğlu Həsənov
Ramiz Adil oğlu Əlizadə
Əli Ağadədə oğlu Əliyev
Firəddin Süleyman oğlu Qəhrəmanov
Əlibala Sahib oğlu Əliyev
Bəybala Əşrəf oğlu Əliyev
Cavanşir Yusif oğlu Əliyev
Akif Səlim oğlu İsmayılzadə

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

### QƏRAR № 17/77

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Böyük Azərbaycan Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Böyük Azərbaycan Partiyası Siyasi Şurasının 2019-cu il 11 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Böyük Azərbaycan Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Vüqar Cavad oğlu Qasımov
Nəsir Misgər oğlu Babayev

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə:**
Valeh Bəylər oğlu Sadıqov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*14.12.2019*

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avropa Parlamentinin deputatlarına məktub göndərib

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının üzvləri Avropa Parlamentinin 751 deputatına məktub göndəriblər. Məktubda icma üzvləri Avropa Parlamentində təmsil olunan deputatlara azərbaycanlı qaçqın və məcburi köçkünlərin hüquqlarının bərpası və qorunması, onların öz yurdlarına geri dönmələri istiqamətində qətiyyətli qərarlar qəbul edəcəyinə və ədalətli mövqe göstərəcəklərinə əminliklərini bildiriblər. AZƏRTAC məktubu təqdim edir:

"Dünyada qaçqın və məcburi köçkünlərin hüquqlarının qorunmasının arxa plana keçirildiyi bir vaxtda, siz - Avropa Parlamentinin deputatları bu ali vəzifənin icrasına başlamısınız. Çox təəssüflər olsun ki, müasir dünyada insan hüquqlarının bir çox nailiyyətlərinin zorakı hərəkətlərlə pozulduğunu müşahidə edirik. Bu çətin dövrdə Ermənistanın hərbi təcavüzündən əziyyət çəkən azərbaycanlı məcburi köçkünlərin insan haqlarının müdafiəsi istiqamətində sarsılmaz iradə nümayişini sizlərdə görmək niyyətindəyik. Biz doğma yurdumuz Dağlıq Qarabağdan və ətraf rayonlardan zorla qovulan, etnik təmizləməyə məruz qalan insanlarıq.

İnsan hüquqları universaldır və Dağlıq Qarabağın azərbaycanlı icmasına münasibətdə seçimli şəkildə həyata keçirilə bilməz. Bizim vətənimizə qayıtmaq, məhrum olduğumuz əmlakımıza sahib çıxmaq, öldürülməkdən və ya etnik təmizləməyə məruz qalmaqdan qorxmadan ata-baba yurdumuzda ləyaqətlə yaşamaq hüququmuz var. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Dağlıq Qarabağın erməni icması ilə birlikdə dinc yanaşı yaşamaq niyyətimizi açıq bəyan edirik. Bu baxımdan, əminik ki, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında birbaşa dialoq gələcək sülh və firavanlıq üçün uyğun imkan yaratmağa kömək edəcək. Bu, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və prinsiplər əsasında ədalətli həllinə öz töhfəsini verəcəkdir".

# 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolu

**Azərbaycanın dövlət müstəqilliyinin bərpasından bugünümüzə qədər keçən illər ərzində ölkəmizin böyük inkişaf yolu keçməsi dünya miqyasında qəbul olunan reallıqdır. 28 ildə qüdrətli ölkəyə çevrilən, dünyada öz mövqeyini cəsarətlə bildirən, hüquqi dövlət quran Azərbaycan hər bir vətəndaşın qarantına çevrilmişdir.**

Demokratik dövlətlərin inkişaf təcrübəsi və ölkəmizin keçdiyi yol bir daha göstərir ki, vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. İnsan və vətəndaş hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyəti, nə də hüquqi dövlət formalaşdırmaq mümkündür. Cəmiyyətdə hüquqların təminatçısı dövlətdir. Dövlət bu hüquqları təmin etməklə özünün həm də qoruduğu əsas dəyərləri göstərir. Azərbaycan da hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunu seçdiyindən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin edir. Respublikamızın inkişaf tarixinə bir daha nəzər salsaq görərik ki, XX əsrin 70-ci illərindən ölkədə yüksələn sürətlə inkişaf edən sosial, iqtisadi, təhsil və mədəni quruculuq işləri başlamışdı. Dövlət müstəqilliyinin bərpa edilməsindən keçən qısa bir dövrdə vətəndaş cəmiyyəti, hüquqi dövlət və demokratik siyasi quruluşun bərqərar olması üçün bir sıra vacib tədbirlər həyata keçirilmişdir. Mühüm sənədlər qəbul edilmiş, öhdəliklərə imza atılmışdır. Əgər biz tarixi zaman ardıcıllığını özündə daşıyan sistemli inkişafın insan hüquqlarının əhatəli formada təmin olunmasına xidmət etməsini nəzərə alsaq, onda belə qənaətə gələ bilərik ki, müstəqil ölkəmizdə insan hüquqlarının inkişaf tarixi iki mərhələni - 1993-2003 və 2003-cü ildən sonrakı dövrləri əhatə edir. Bu iki mərhələni eyni məzmun və istiqamətdə məhz insan hüquqları üzrə normativ-hüquqi bazanın yaradılması tamamlamışdır.

Müasir dövrün ən çox işlədilən sözlərindən biri də "vətəndaş cəmiyyəti" ifadəsidir. Bu ifadənin hər hansı ölkə daxilində işlədilməsinin səviyyəsi dövlət hakimiyyətinin formasını müəyyən etmək üçün təsəvvürlər sistemi yaradır. Vətəndaş cəmiyyəti quruculuğundan söhbət gedirsə, demək demokratik dəyərlərin mövcudluğundan danışılır. İnkişaf nəticəsində əldə edilmiş, müəyyən meyarlara cavab verən cəmiyyət anlaşılır ki, bu da tərəqqidə daha yüksək pillədir.

Vətəndaş cəmiyyəti açıq, demokratik, antitotalitar, müstəqil inkşaf edən cəmiyyətdir ki, burada əsas yeri insan, vətəndaş, şəxsiyyət tutur. Vətəndaş cəmiyyəti insanların siyasi yox, başlıca olaraq iqtisadi və şəxsi həyat fəaliyyəti sferasıdır. Burada avtoritar hakimiyyətə, totalitarizmə, insanlara qarşı zorakılığa yer yoxdur. Humanizm prinsiplərinə, qanunlara və əxlaqa hörmət edilir.

İnsan hüquqları ideyası öz kökü etibarilə qədimlərə, antik dövrlərə gedib çıxsa da, bu ideyanın müasir fəlsəfi-siyasi əsasları XVII-XVIII əsrlərdə böyük maarifçilik dövründə formalaşmışdır. XVIII-XIX əsrlərdən başlayaraq "vətəndaş cəmiyyəti" anlayışı insanların digər birlik formalarından ayrıca öyrənilməyə başlanıb. Məlum olduğu kimi, bu cəmiyyətin gerçəkləşməsi üç tarixi mərhələdən keçib: XVI-XVII əsrləri əhatə edən birinci mərhələdə vətəndaş cəmiyyətinin siyasi, iqtisadi və ideoloji zəmini formalaşıb. XVIII-XIX əsrləri əhatə edən ikinci mərhələdə vətəndaş cəmiyyəti xüsusi mülkiyyətə, azadlıq və liberal demokratiyaya əsaslanan ictimai münasibətlər şəraitində inkişaf edib. Vətəndaş cəmiyyətinin inkişafında üçüncü mərhələ müasir dövrü - XX əsri və XXI əsrin əvvəllərini əhatə edir. Bu dövrdə isə vətəndaş cəmiyyəti və hüquqi dövlət bazar iqtisadiyyatı, demokratiya, millət ideyası, milli dövlət ümumbəşəri sərvətə çevrilib. Siyasi plüralizm, söz, fikir, mətbuat azadlığı və çoxpartiyalı sistem formalaşıb. Azərbaycanda da cəmiyyəti narahat edən problemləri aradan qaldırmaq, ictimai maraqları uzlaşdırmaq, mənəvi tələbatları ödəmək məqsədilə vətəndaşların müxtəlif ictimai birliklər yaratmaq ənənəsi tarixən mövcud olub. Ancaq etiraf edilməlidir ki, tarixin müxtəlif mərhələlərində hələ vətəndaş cəmiyyəti kimi tam formalaşmamış ictimai birliklər müxtəlif siyasi qüvvələrin təsiri altına asanlıqla düşə biliblər. Əksər vətəndaş cəmiyyətlərinin şəxsi maraqlara üstünlük verməlri onları ictimai-siyasi proseslərdən kənar qoymuş, yaxud barələrində xoşagəlməz fikirlər yaratmışdı.

Burada tarixə bir ekskurs etmək yerinə düşər. Bizə elə gəlməsin ki, yerli özünüidarə orqanları - bələdiyyələr XX əsrin sonlarında formalaşmışdı. Bu təcrübə hələ XIX əsrdən, Azərbaycanın çar Rusiyasının tərkibində olduğu illərdən mövcud olmuşdur. Rusiyada təhkimçilik islahatından sonra Cənubi Qafqazı kəndli hərəkatı bürümüşdü. Çar hökuməti vətəndaş cəmiyyəti, hüquqi dövlət yaratmaq naminə yox, öz idarə sistemini tənzimləmək və başlanan hərəkatı yatırmaq xatirinə 1870-ci illərdə obyektiv olaraq Azərbaycanda da bir sıra islahatlar, o cümlədən şəhər islahatı da keçirmişdi. Belə ki, 1870-ci il iyulun 11-də çar şəhərlər haqqında yeni "Əsasnamə"nin layihəsini təsdiq etmişdi. "Əsasnamə"yə görə şəhər dumaları silksiz əvəz olunurdu. Duma üzvləri - bələdiyyə üzvləri isə əmlak senzi əsasında dörd il müddətində seçilirdi. Duma (bələdiyyə) seçkilərində vergi verən əhalinin hamısı iştirak edə bilərdi. Şəhərdə vergiləri verməyən fəhlələr, qulluqçular, ziyalılar bələdiyyə üzvləri seçkilərində iştirak edə bilməzdi. Şəhər özünüidarəsinin başlıca vəzifəsi isə təsərrüfat məsələləri - şəhərin abadlaşdırılması, bazarların tikilməsi, yerli ticarət, maarif, səhiyyəni himayə və s. ilə məhdudlaşdırılırdı. Eyni zamanda, məhdud şəkildə "Şəhər əsasnaməsi" 1874-cü ildə Bakı, Gəncə, Şuşa, Nuxa, Naxçıvan və Ordubad şəhərlərinə şamil edilmişdi. Göründüyü kimi, o dövrdə məcburiyyətdən keçirilməsinə icazə verilən bələdiyyə seçkiləri Azərbaycanın bütün şəhərlərinə aid edilməmiş və qəsdən keçirilməsi gecikdirilmişdir. Bələdiyyə üzvlərinin hüquqlarının məhdudlaşdırılması bir yana, seçkilərdə iştirak silklər üzrə müəyyənləşdirilmiş, əhalinin əsas hissəsi - ziyalılar və şəhərdə yaşayanlar vətəndaş cəmiyyəti və hüquqi dövlətin olmadığından seçkidən kənarda qalmışlar.

Hazırda "vətəndaş cəmiyyəti və hüquqi dövlət"in bərqərar olduğu Azərbaycanda keçirilən seçkilərlə çar Rusiyası dövründə aparılan bələdiyyə seçkilərini müqayisə etməklə görürük ki, ovaxtkı bələdiyyə seçkiləri və onların fəaliyyətləri "vətəndaş cəmiyyəti və hüquqi dövlət"in bərqərar olmadığından asılılıq şəraitində olmuşdur.

Belə müqayisələr obyektiv olaraq göstərir ki, Azərbaycan müstəqillik illərində demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçmişdir. Aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə demokratik və hüquqi dövlət qurulmuş, xalqımızın xoşbəxt gələcəyi üçün bütün təminatlar yaradılmış, dönməz ictimai-siyasi sabitlik və əmin-amanlıq bərqərar olunmaqla, qanunun aliliyinə əsaslanan sivil vətəndaş cəmiyyəti formalaşdırılmışdır. Bu gün Azərbaycan inkişaf etmiş ölkələr arasında xüsusi yeri və böyük nüfuzu olan dövlətdir.

Ölkəmizdə vətəndaş cəmiyyəti institutlarının keçdiyi inkişaf yoluna nəzər saldıqda istər-istəməz XX əsrin 90-cı illərinin əvvəlləri yada düşür. Xalqımız ovaxt milli dövlətçiliyini bərpa etsə də, çoxlu mənəvi sarsıntılara məruz qalmış, böhranlı, ağrılı-acılı və faciəli günlər yaşamışdır. Azərbaycanın müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı Ulu Öndərin adı ilə bağlıdır. 1993-cü ilin yayında xalqın çağırışı ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev ölkəmizi xaos və hakimiyyətsizlik bəlasından xilas etmiş, ictimai-siyasi sabitliyin təmin edilməsinə nail olmuş, bütün sahələrdə əsaslı islahatların aparılması üçün zəmin hazırlamışdır.

Hüquqi dövlətin Azərbaycan modeli ümumxalq səsverməsi yolu ilə 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın Konstitusiyası ilə gerçəkləşmişdir. 5 bölmə, 12 fəsil və 158 maddəni özündə birləşdirən Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarına üstünlük verən ən demokratik konstitusiyalardan biridir. Bu ali qanunun bütöv bir fəslinin və 60-a yaxın maddəsinin məhz insan hüquq və azadlıqları ilə bilavasitə bağlılığı dövlətimizin hüquqi və demokratik prinsipləri uca tutmasını təsdiq edir. Konstitusiyanın "Əsas insan hüquqları və azadlıqları" adlanan və 48 maddədən ibarət olan III fəsli insan hüquqları və azadlıqlarının geniş dairəsini nəzərdə tutur.

Heydər Əliyevin müəllifi olduğu yeni Konstitusiya dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açdı. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan, vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratdı və yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərləri özündə əks etdirdi. Müstəqil Azərbaycanın Konstitusiyası insan hüquq və azadlıqlarının təminatı, demokratik vətəndaş cəmiyyəti quruculuğunu dövlətin ali məqsədi kimi müəyyən etdi. Konstitusiyanın "vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq" müddəası ölkəmizin sivil gələcəyinə hesablanmış dövlət sisteminin qurulmasından xəbər verirdi. Belə ki, 1993-cü ildə ölüm cəzası üzərində moratorium qoyulmuş, 1995-ci ildə əfvetmə institutu bərpa edilməklə əfv komissiyası yaradılmış, 10 fevral 1998-ci il tarixdə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası tamamilə ləğv edilmişdi.

1996-cı ildə Hüquqi İslahat Komissiyası yaradıldı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" qanunların qəbulu və 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasında ilk bələdiyyə seçkilərinin keçirilməsi hüquqi dövlət quruculuğunun inkişafında reallaşdırılan uğurlu islahatların bariz göstəricisidir.

Bələdiyyələrin hüquqi statusu ilə bağlı əsas müddəalar Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiya ilə yanaşı, yerli özünüidarəni birbaşa tənzimləyən iyirmiyə yaxın qanun qəbul edilmişdir. Bunlardan "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyənin nümunəvi nizamnaməsinin təsdiq edilməsi haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında", "Yerli rəy sorğusu haqqında" sənədləri, "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"ni qeyd etmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının dördüncü bölməsi "Yerli özünüidarəetmə", IX fəsli isə "Bələdiyyələr" adlanır ki, burada yerli özünüidarəetmənin təşkili, bələdiyyələrin statusu, səlahiyyətləri haqqında Konstitusiya qanunu təsbit edilmişdir.

2001-ci il yanvarın 17-də dövlətimiz Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul olunmuşdur. 2001-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını ratifikasiya etmişdir.

Heydər Əliyev dövlətçilik təliminə uyğun olaraq milli mənafenin, dövlətçilik maraqlarının üstün tutulması Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin təməl prinsipini təşkil edir. Azərbaycan Prezidentinin 7 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan və vətəndaş hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl və məqsədyönlü siyasətin parlaq nümunəsidir. Azərbaycan Prezidentinin siyasətinin mərkəzində insan amili durur. Dövlət siyasəti vətəndaşın sosial rifahının, təhlükəsiz yaşayışının təmin edilməsinə xidmət edir.



Bələdiyyələrin fəaliyyət göstərdiyi 20 illik dövrü nəzərdən keçirərkən aydın olur ki, yerli özünüidarəetmə işinin qurulmasında, uğur əldə edilməsində və vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolunun təmin edilməsində bir sıra mühüm şərtlər var. Belə ki, keçən dövrdə bələdiyyə üzvlərinin və bələdiyyə qulluqçularının peşəkarlıq səviyyəsi artmışdır. 20 illik fəaliyyətin nəticəsi olaraq yerli özünüidarəetmə sistemində təcrübəli və peşəkar kadr heyəti formalaşmışdır. Bələdiyyə üzvlərinin təhsil səviyyəsi əvvəlki illərlə müqayisədə xeyli yüksəlmişdir. 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində ali təhsillilərin sayı 7563 nəfər olmaqla 34 faiz təşkil edirdisə, 2014-cü ildə keçirilmiş son bələdiyyə seçkilərində seçilmiş ali təhsilli bələdiyyə üzvlərinin sayı 13434 nəfər olmaqla, 89,8 faiz təşkil etmişdir. 2004-cü ildə bələdiyyə sədrlərinin yalnız 44 faizini ali təhsilli şəxslər təşkil edirdisə, hazırda rəsmi məlumata görə bütün bələdiyyə sədrləri ali təhsillidir.

Bələdiyyə üzvləri yaş fərqinə görə də gəncləşmişdir. Son dövrlər dövlət qurumlarında müşahidə olunan gəncləşmə siyasəti, gənclərin dövlət idarəçiliyində önə çıxarılması və yüksək postlara təyin edilmə prosesi yerli özünüidarəetmə sistemində də gənclərin aktivliyinə səbəb olmuşdur. Belə ki, respublika üzrə 2004-cü ildə keçirilmiş bələdiyyə seçkilərində seçilmiş gənc bələdiyyə üzvlərinin sayı 500 nəfər olaraq, 2 faiz təşkil etmişdirsə, 2009-cu ildə bu rəqəm artaraq 4303 nəfər - 27,6 faiz olmuşdur. 2014-cü ildə keçirilmiş bələdiyyə seçkilərində isə seçilmiş gənclərin sayı artaraq 5450 nəfər olmaqla 36,42 faizə kimi yüksəlmişdir. Ən yaxşı hal olaraq bələdiyyə üzvləri arasında qadınların sayında artım olmuşdur. Qadınların ölkənin ictimai-siyasi həyatında iştirakında və mühüm dövlət orqanlarına irəli çəkilmə hallarıında ötən illərlə müqayisədə yüksək göstəricilik müşahidə edilmişdir. Cinsi ayrıseçkilik olmadan kişilərlə bərabər hüquqlu vətəndaş olmasına dövlət idarəçiliyində və ümumiyyətlə, ictimai-siyasi sahədə qadınların aktivliyinə Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsinin II bəndinə əsasən təminat verilmişdir. Ölkənin ictimai-siyasi həyatında qadınların fəallığının artması bələdiyyə sistemində də özünü göstərmişdir. Bələdiyyə üzvü seçilmiş qadınların sayı ilk seçkilərlə müqayisədə 6 dəfə artaraq 5236 nəfər olmuşdur. Bu isə bələdiyyə üzvlərinin sırasında qadınların payının 4 faizdən yüksələrək 35 faiz təşkil etməsi deməkdir. Bütün bu göstərilən şərtlər vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolunun artmasını şərtləndirən amillər olmuşdur.

Bu ilin dekabr ayında keçiriləcək yeni bələdiyyə seçkiləri ərəfəsində olduğumuzu nəzərə alaraq bəzi fikirlərimi də bildirmək istərdim. Bəzən bələdiyyə üzvləri öz fəaliyyətlərində gözləmə və yaxud müşahidəçi qismində iştirak edən kimi görünürlər. Yaxşı olar ki, onlar təşəbbüskar olsunlar və fəallıqlarını artırsınlar. Görüşlər keçirsinlər. Bu görüşlərə "Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu"ndan danışmaq üçün tanınmış mütəxəssislər, ziyalılar, hüquqşünaslar, hüquq mühafizə orqanlarının nümayəndələri dəvət olunsa, daha faydalı olardı.

Respublikada aparılan hərtərəfli quruculuq işləri və yerli özünüidarəetmə orqanlarının fəaliyyəti göstərir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ölkə rəhbəri İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar və quruculuq işləri respublikanın bütün regionlarını əhatə etməkdədir. Azərbaycanda inteqrasiya prosesinin gücləndiyi, hüququn müasir inkişafı və keçirilən islahatların məntiqi davamı kimi, Konstitutsiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir və qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir. Ölkə rəhbərinin xalqın intellektual potensialının, təhsilinin, elminin, mədəniyyətinin inkişafı naminə imzaladığı silsilə fərmanlar, sərəncamlar və bugünkü uğurlar bizə əsas verir deyək ki, Azərbaycanda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğunda yerli özünüidarəetmə orqanlarının rolu əvəzsizdir.

***Şikar QASIMOV,***
***Azərbaycan Texniki Universitetinin kafedra müdiri, professor***

# Hazırlıq işləri başa çatıb



**Bələdiyyə seçkilərinə sayılı günlər qalır. Seçkilərin yüksək səviyyədə keçməsi üçün Sumqayıt şəhərində də hazırlıq işləri başa çatıb. Müşahidəçilərin səsvermənin gedişini izləmələri üçün lazımi şərait yaradılıb.**

43 saylı üçüncü Sumqayıt dairə seçki komissiyasının (DSK) sədri Həsən Məmmədovla söhbətimiz də bu barədə oldu. O dedi ki, seçkilər hər bir dövrdə xalqın gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi prosesdir. Bu prosesdə xalq həmişə layiqli namizədə etimad göstərib. İnanırıq ki, bu seçkidə də belə olacaq. Bizim seçki dairəsində 34 daimi seçki məntəqəsi fəaliyyət göstərir.

Dairədə ilk dəfə 225 gənc səs verəcək. Onların çoxu ali məktəb tələbəsidir. Maraqlıdır ki, əksəriyyət vaxt tapan kimi dairə seçki komissiyasına gəlir və seçkilərin keçirilməsində bizə kömək etmək istədiklərini bildirirlər. Belə gənclərlə fəxr etməyə dəyər.

Yaşlı nəslin nümayəndələrinə gəldikdə onların əksəriyyəti ilə məntəqələrdə görüş keçirilmiş, seçki günü səsvermələri üçün xüsusi marşrutlar müəyyənləşdirilmişdir.

Daha sonra komissiya sədri qeyd etdi ki, bütün məntəqələr telefonlaşdırılıb, müasir texniki avadanlıqlarla təmin edilib. Seçki günü məntəqələrin fasiləsiz elektrik enerjisi ilə təmin olunmaları üçün müvafiq tədbirlər görülüb.

Namizədlərin təbliğat-təşviqat materiallarının yerləşdirilməsi üçün lövhələr quraşdırılıb. 19 bələdiyyə üzvü seçilməlidir. Namizədlərin sayı isə 75 nəfərdir. Onların hamısına eyni şərait yaradılıb.

DSK-nın sədri vurğuladı ki, bütün seçki məntəqələri üzrə treninqlər keçirilib. Maarifləndirmə işləri yerinə yetirilib, məntəqələrə təlimatlar, yaddaş kitabçaları paylanılıb.

DSK üzrə müşahidəçilərin sayı 205 nəfərdir. Qeyri-hökumət təşkilatlarının, YAP, BAXCP və digər partiyaların müşahidəçiləri artıq qeydiyyatdan keçib. Onların arasında öz təşəbbüsü ilə qeydə alınanlar da var. Seçki gününədək müşahidəçilərin sayının artacağı gözlənilir.

43 saylı Sumqayıt üçüncü seçki dairəsinin 13 saylı seçki məntəqəsində də olduq. Burada da hazırlıq işləri başa çatmaq üzrə idi. Məntəqə seçki komissiyasının sədri Tahirə Səfərova bildirdi ki, məntəqədə 1365 nəfər səs verməlidir. Məntəqə seçki qanunlarına uyğun ləvazimatlarla təmin edilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# İşlər yüksək səviyyədədir

**Yerli özünüidarəetmə orqanları olan bələdiyyələrə növbəti seçkilərin keçirilməsinə artıq sayılı günlər qalır. Bələdiyyə seçkilərinin keçirilməsinə dair Mərkəzi Seçki Komissiyasının təqvim planına görə indi təbliğat və təşviqat dövrüdür.**



Bu günlər cəbhə bölgəsi olan Tərtər rayonunda da siyasi fəallıq hökm sürür. 95 saylı Tərtər seçki dairəsinin əhatə etdiyi məntəqələrdə seçkilər haqqında qanunun tələblərinə uyğun normal seçki mühiti yaradılmışdır. Adıçəkilən dairə 22 bələdiyyəni əhatə edir. Ərazi üzrə seçki məntəqələrinin sayı 37-dir. 202 bələdiyyə üzvlüyünə 665 nəfərin namizədliyi qeydə alınmışdır. Öz təşəbbüsü ilə qeydə alınan namizədlərin sayı 452 nəfərdir. Siyasi partiyalar tərəfindən irəli sürülən namizədlərin sırası isə 214 nəfərdir.

95 saylı Tərtər dairə seçki komissiyasının sədri Həmid Mehdiyev söhbət zamanı dedi ki, bələdiyyə seçkilərinin demokratik, şəffaf və qanunun tələbləri səviyyəsində keçirilməsi üçün bütün zəruri tədbirlər görülmüşdür. Dairə və məntəqələrin texniki təchizatı Mərkəzi Seçki Komissiyası tərəfindən yüksək səviyyədə təmin olunmuşdur.

Dairə seçki komissiyasının sədri bildirdi ki, dairə üzrə seçki siyahılarına 37.025 nəfərin adı daxil edilmişdir. İlk dəfə səs verəcək rayon sakinlərinin sayı 822 nəfərdir. Seçkini müşahidə etmək üçün 371 nəfər qeydə alınmışdır. Bunların 333 nəfəri müşahidəçilik missiyasını öz təşəbbüsü ilə həyata keçirəcəkdir. Seçkidən-seçkiyə daha da təkmilləşən seçki prosesində mütərəqqi texnologiyadan da istifadə olunacaq. Bu məqsədlə 8 saylı məntəqədə VEB kameralar quraşdırılmışdır. Seçkilərə hazırlıq prosesində heç bir qanun pozuntusu müşahidə edilməmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Uğura imza atan məktəblilər

Bu günlərdə Qətərin paytaxtı Dohada Yeniyetmələrin XVI Beynəlxalq Elm Olimpiadası keçirilib. Builki olimpiadada 70 ölkə (68 iştirakçı, 2 müşahidəçi) iştirak edib.

IJSO (International Junior Science Olympiad) Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadası təbiət fənləri (fizika, kimya, biologiya) üzrə həm fərdi, həm də komanda formatında təşkil edilən elm yarışıdır. 3 mərhələdən ibarət olan yarışın qapalı test mərhələsi və nəzəri turunda şagirdlər fərdi, praktiki turda isə komanda formasında öz bilik və bacarıqlarını nümayiş etdirirlər.

Builki olimpiadada ölkəmizi təmsil edən 6 şagirdin hər biri qalib olmuşdur. 4 gümüş və 2 bürünc medal alan şagirdlərimiz 100 faiz nəticə göstərərək ölkələr arasında reytinq sıralanmasında yuxarı mövqelərdə qərarlaşmışdır. 2004-cü ildən etibarən bu olimpiadaya qatılan Azərbaycan şagirdləri tərəfindən ümumilikdə 4 gümüş və 38 bürünc medal qazanılmışdır. 2019-cu ildə isə şagirdlərimiz 4 gümüş və 2 bürünc medal əldə edərək medalların sayını 48-ə çatdırmışdır.

Bir məsələyə toxunmaq istərdik ki, məktəblilərimizin bu tip olimpiadalara hazırlıqlarının təmin edilməsi məqsədilə ana dilində müvafiq vəsaitlərin olması vacib məsələlərdən biridir. Elə bu səbəblə sırf yeniyetmələrin beynəlxalq olimpiadalarına hazırlıq prosesinə daha çox şagirdlərin cəlb edilməsi və onların hazırlıq səviyyələrinin yaxşılaşdırılması məqsədilə həm biologiya, həm fizika, həm də kimya fənləri üzrə vəsaitlər hazırlanmış və təqdimatları keçirilmişdir.

Növbəti "IJSO 2020" Almaniyanın Frankfurt şəhərində keçiriləcək. Bu olimpidada ölkəmizi təmsil edəcək komandanın seçmə imtahanının I mərhələsinə cari tədris ilində respublika fənn olimpiadalarında müvafiq fənlər üzrə yüksək nəticə göstərən şagirdlər dəvət ediləcəklər.

***"Azərbaycan"***



Elm xadimləri

**Böyük insanları həmişə uca dağlara bənzədirlər. Çünki onlar adiliklər müstəvisinə sığmırlar. Görkəmli alim, akademik Həsən Əliyev də təkrarsız insani xüsusiyyətlərə malik olan şəxsiyyət idi. Sadəlik, təbiilik, müstəsna qayğıkeşlik, səmimiyyət, xeyirxahlıq, alicənablıq onu ətrafdakılara doğmalaşdıran və sevdirən ən mühüm keyfiyyətlərdən idi. Həsən Əliyev keşməkeşli həyat yaşamışdı. Ziyalılığı, insanpərvərliyi ilə hamının, xüsusilə elmi ictimaiyyətin sonsuz hörmət və ehtiramını qazanmışdı. Bu böyük alimin həyatı və yaradıcılığı bugünkü və gələcək nəsillər üçün bir nümunədir.**



# Vətənpərvər alim, ictimai-siyasi xadim, qayğıkeş insan

Qədim Zəngəzur torpağında dünyaya göz açan Həsən Əliyevin hələ uşaq yaşlarından təbiət vurğunu olması, vətənpərvərliyi sonrakı dövrlərdə onun Azərbaycan təbiətinin qorunması üçün “Həyəcan təbili” çalmasına, belə qiymətli əsər yazmasına gətirib çıxarmışdır. Hələ 7-8 yaşlarında Comərdli kəndinin güllü-çiçəkli kövşənindən başlayan kiçik bir cığır yorulmaz tədqiqatçı alimin zəhməti, yüksək fitri istedadı, intellektual potensialı, ən əsas isə vətəninə sevgisi sayəsində genişlənmiş, elmin akademik Həsən Əliyev zirvəsinə qalxmasına səbəb olmuşdur.

Əvvəlcə Naxçıvandakı Kənd Təsərrüfatı Texnikumunda (1927-30-cu illərdə), sonra isə Gəncə şəhərində Kənd Təsərrüfatı İnstitutunda (1930-32-ci illərdə) təhsil almışdı. 1932-ci ildə aspiranturaya daxil olmuşdur. Bundan sonra bütün həyatını elmə həsr edərək, düz altmış illik fəaliyyətində ölkəmizin təbiətinin qorunması, zənginləşməsi, daha da səmərəli şəkildə istifadə olunması yolunda fədakarlıq göstərmiş, şərəfli bir ömür yolu keçmişdir.

Həsən Əliyevin apardığı elmi-tədqiqat işlərinin istiqaməti onun gələcəkdə böyük torpaqşünas, botanik, ekoloq alim kimi formalaşmasına səbəb olmuşdur.

Prezident İlham Əliyevin akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqındakı sərəncamında qeyd olunduğu kimi: “Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir”.

Akademik Həsən Əliyevin 1930-1940-cı illərdə apardığı tədqiqatlar təkcə onun elmi fəaliyyətinin başlanğıcı deyil, eyni zamanda Azərbaycan torpaqşünaslıq elminin əsasının qoyulduğu tarixi dövrdür.

Ömrünün üç ilini Böyük Vətən müharibəsinin odu-alovu içərisində keçirmiş Həsən müəllim ağır döyüşlərin birində ciddi yaralanaraq ön cəbhədən tərxis olunmuş və yenidən elmi fəaliyyətini davam etdirmişdir.

1944-cü ildə namizədlik, 1965-ci ildə doktorluq dissertasiyalarını uğurla müdafiə etmişdi. Qısa zamanda Azərbaycan elminə böyük töhfələr vermiş, görkəmli alim, ictimai-siyasi xadim kimi tanınmışdır. Beləliklə, böyük torpaqşünas alim, kənd təsərrüfatı elmləri doktoru, professor Həsən Əliyev 1952-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının akademiki seçilmişdir.

O, Azərbaycan elminin korifeyləri olan Mirəsədulla Mirqasımov, Yusif Məmmədəliyev, Mustafa Topçubaşov və digər görkəmli alimlərlə birlikdə elmimizin inkişafında müstəsna xidmətlər göstərmişdir. Azərbaycanda coğrafiya, kənd təsərrüfatı, aqrobiologiya, torpaqşünaslıq, ekologiya kimi elm sahələri onun rəhbərliyi ilə formalaşmışdır.

1949-1952-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutuna rəhbərlik edən Həsən müəllimin səyi nəticəsində səkkiz cildlik “Azərbaycan florası” kitabı hazırlanmış və nəşr olunmuşdur. Akademik EA-nın akademik katibi vəzifəsində işləyərkən (1952-1957-ci illərdə) Torpaqşünaslıq və Aqrokimya İnstitutunda respublika torpaq fondunun pasportlaşdırılmasına başçılıq etmişdir.

Həsən müəllimin Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini, Botanika, Coğrafiya institutlarının direktoru, Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Azərbaycan filialının sədri kimi fəaliyyət göstərdiyi dövr torpaqşünaslıq və aqrokimya elminin hərtərəfli inkişaf mərhələsi kimi dəyərləndirilir.

Alimin əsas elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə etmişdir. O, Şərqi Zaqafqaziya torpaqlarının əmələ gəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Təbii ehtiyatların tədqiqi, təbiətdən istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətidir.

Görkəmli alim 1952-1960-cı illərdə Böyük Qafqazın torpaqlarının genetik-coğrafi cəhətdən öyrənilməsi sahəsində “Azərbaycanda qəhvəyi meşə torpaqlarının yayılması”, “Azərbaycanda qaratorpaqların yayılması məsələsinə dair”, “Yüksək dağlıq zonada torflu torpaqların bəzi xüsusiyyətləri”, “Böyük Qafqazın Şərq hissəsinin qəhvəyi meşə torpaqları” və s. elmi əsərlərini çap etdirmişdir. Bu kitablarda Böyük Qafqazda torpaq əmələgəlmə şəraiti dərindən tədqiq edilmiş, taksonomik torpaq vahidlərinin hərtərəfli elmi təsviri verilmişdir.

Azərbaycan Respublikası torpaqlarının kompleks tədqiqi, müxtəlif miqyaslı xəritələrin tərtib edilməsi, coğrafi atlasların hazırlanması, ətraf mühitin öyrənilməsi bilavasitə akademik Həsən Əliyevin adı ilə bağlıdır.

Görkəmli alim 1970-ci ildən başlayaraq ömrünün sonuna qədər əsas diqqətini Azərbaycanda təbiətin mühafizəsinə, ekoloji problemlərin, torpağın eroziyası, çirklənməsi və rekultivasiyası məsələlərinə yönəltmişdir.

Respublikamızda ətraf mühitin pozulması, təbii sərvətlərin deqradasiyası və tədricən sıradan çıxması Həsən Əliyevi daim narahat edirdi. O, insanları təbiəti sevməyə, ona qayğı göstərməyə çağıraraq yazırdı: “Mühitin dəyişdirilməsi bəşərin varlığını təhlükə qarşısında qoyur. İnsan özü-özünün keşikçisi olmalıdır. Ayrı heç bir canlı onun harayına gəlməyəcək... Bu gün həyəcan təbili çalmaq yerinə düşərdi. Bu “təbili” heç yerdən asmaq lazım deyil. O, bugünün insanlarının ürəyidir. Bu ürək ətrafına daha həssas baxmalı, təbiətdən harada, nəyi, necə götürmək məsələsində, həmişə, hər yerdə öz sözünü deməlidir. Bu münasibət üzərində yaşadığımız, havasını udduğumuz Azərbaycan təbiətinə aiddir. Azərbaycan təbiətinə kor-koranə münasibət görəndə bu təbil daha böyük həyəcanla döyülməli, bizi ayıq-sayıq salmalıdır. Bəlkə toya, yasa və digər mərasimə yubanmaq da olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır...”

Akademikin vaxtilə dediyi “..təbiət aynadır. Ona ləkə düşməməlidir. Ləkəli ayna əksi eybəcər hala saldığı kimi, qorunmayan təbiət də insana həm maddi, həm mənəvi əziyyət verir” sözləri bütün dövrlər üçün aktualdır.

Akademik Həsən Əliyev qırx ildən artıq bir dövr ərzində respublikamızda təbiəti mühafizə ideyasının təbliği yolunda maarifçilik işi aparmışdır. XX əsrin ikinci yarısında elmi-texniki tərəqqinin yaratdığı möcüzələr heyrət doğursa da, onun təbiətə vurduğu yaraların sızıltısı hələ uzun çəkəcəkdir. İnsanların məqsədyönsüz fəaliyyəti məhsuldar düzənləri səhralara, meşələri bozqırlara, çılpaqlaşmış dağ yamaclarını sıldırım qayalıqlara çevirir. Planetimizdə insanların sayı artır, təbii mühitin isə onları yaşatmaq imkanı azalır. Daha doğrusu, insanın özü bu imkanı azaldır. Həsən müəllim bunu çoxlarından yaxşı görürdü və dərk edirdi. O, həmişə deyirdi ki, elliklə ümidlərimizin, arzu və istəklərimizin həqiqətə çevrilməsi, reallığa qovuşması bizim təbiətə münasibətimizdən çox asılıdır. Təbiətə münasibət həm də dünya sivilizasiya sistemində konkret bir millətin özünüdərketmə və mənəvi-mədəni inkişafının səviyyəsini, yetkinliyini göstərir.

“Dünyada mövcud olan on bir iqlim növündən doqquzu bütövlükdə, ikisi isə qismən Azərbaycanda var. Bu, möcüzədir. Bunu dərk edin, qiymətini bilin ...” Onun təbiət adlı simfoniyasının uvertürası idi bu kəlmələr. Tez-tez təkrar edər, bu hikmətin çəkisini, dəyərini, mənasının dərinliyini anlatmağa çalışardı.

Həsən müəllimə görə təbiəti sevmək vətəni sevmək demək idi. Təbiətimizin mühafizəsi sahəsində göstərdiyi xidmətlərin nəticəsi idi ki, o, Azərbaycan Elmlər Akademiyasının Təbiəti mühafizə üzrə komissiyanın sədri seçilmişdi.

Təbiətin mühafizəsinə xüsusi diqqət ayıran akademik respublikamızda həmin problemin həllinin vacibliyi ilə bağlı həyəcan təbili çalmışdır. Onun “Həyəcan təbili” əsəri (Bakı, 1976, 1982) təbiətin və ətraf mühitin qorunması üçün insanlara ağrılı, hərarətli müraciət, çağırış idi.

1957-ci ildə Həsən Əliyevin təşəbbüsü ilə Bakıda Zaqafqaziyada təbiətin mühafizəsinə həsr olunmuş müşavirə keçirilmiş, bu müşavirədə ilk dəfə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilati formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti təhlil edilmiş və əməli təkliflər irəli sürülmüşdür. Bir vaxtlar respublikada fəaliyyət göstərmiş Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi, Təbiəti Mühafizə Cəmiyyəti bilavasitə böyük alimin şəxsi təşəbbüsü ilə yaradılmşdır.

Akademik Həsən Əliyevin redaktorluğu ilə çap edilən “Azərbaycan təbiəti” adlı elmi-kütləvi jurnal təbiətimizin mühafizəsinin təbliğində mühüm rol oynamışdır.

Akademikin təşəbbüsü ilə Kürboyu “Qarayazı”, “Bəsitçay”, “Türyançay”, “İsmayıllı”, “Pirqulu”, Kiçik Qafqazda “Göygöl”, Qarabağ vulkanik yaylasının cənub hissəsində “Qaragöl” və nəsli kəsilmək təhlükəsi olan ceyranların mühafizəsi, artırılması üçün “Şirvan” dövlət qoruqları yaradılmışdır.

Sevindirici haldır ki, görkəmli təbiətşünas alimin ölkəmizin ekoloji mühiti, zəngin təbiətinin qorunması haqqındakı arzuları reallığa çevrilmişdir. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, yaşıllıqların sahəsi artırılır, yeni qoruqlar, milli parklar yaradılır, təbiətimizin mühafizəsi istiqamətində dövlət səviyyəsində mühüm işlər görülür. Bu günlərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Nəsiminin 650 illik yubileyi münasibətilə ölkəmizin müxtəlif bölgələrində 650 min ağac əkildi. Bu mühüm əhəmiyyətli kampaniyada Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva da iştirak etmişdir. Bütün bunlar həm də görkəmli alim Həsən Əliyevin təbiətin zənginləşdirilməsi sahəsindəki arzularının reallığa çevrilməsi, onun təməlini qoyduğu ənənələrinin davam etdirilməsidir.

Mənalı və şərəfli ömür yaşamış akademik Həsən Əliyev özündən sonra gələn nəsillərə zəngin elmi irs qoymuşdur. 60 ildən çox davam edən elmi yaradıcılıq fəaliyyətində 800-ə qədər elmi məqalənin, monoqrafiyanın, 140-a qədər müxtəlif təyinatlı xəritələrin, xeyli sayda elmi-kütləvi əsərlərin müəllifi olan, dünyanın onlarla ölkəsini gəzmiş Həsən Əliyev yazırdı: “Öz ölkəmiz qədər mənə xoş təsir bağışlayan ikinci bir ölkə tanımıram. Buranın insanları da, iqlimi də, torpağı, suyu, meşəsi, havası da əvəzolunmazdır. Burada yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir. Qaş kirpiyi, kirpik isə gözü qoruduğu kimi, bizim hər birimiz Allahın bizə bəxş etdiyi bu neməti göz bəbəyimiztək qorumalıyıq, onun keşiyində durmalıyıq, qayğısını çəkməliyik... Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim “çörək ağacımız” olmaqla yanaşı, həm də yaşayışımızın ibtidasını təşkil edir. Torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir”.

Akademik Həsən Əliyevin Vətən sevgisinin, torpaq təəssübünün, təbiətə vurğunluğunun dəfələrlə şahidi olmuşam. Yüzlərlə vətənpərvər elm adamının yetişməsində akademik Həsən Əliyevin mühüm xidmətləri vardır. Onunla həm doğulduğu Comərdli kəndində, həm də Naxçıvandakı görüşlərimizdə vətənimiz üçün canını belə verməyə hazır olan qiymətli bir ziyalı obrazı görmüşəm.

Akademik Həsən Əliyevin ölkəmizin təbiətinin, ekoloji mühitinin qorunması naminə apardığı mübarizənin dəfələrlə şahidi olmuşam. Onlardan biri barədə oxucularımıza məlumat vermək yerinə düşərdi. Ötən əsrin 60-cı illərində Naxçıvanın Nehrəm kəndi yaxınlığında “Kaustik soda” kombinatının tikilməsi nəzərdə tutulmuşdu. Kombinatın layihəsi SSRİ Nazirlər Soveti tərəfindən təsdiq olunmuşdu. Kombinatın tikintisinə başlamaq ərəfəsində Həsən müəllim bu layihədən xəbər tutdu və dərhal dövlət səviyyəsində öz sözünü dedi. O, rəsmi şəxslərdən əgər kombinat inşa olunarsa, onun tüstüsünün hara gedəcəyini soruşdu. Geologiyada Naxçıvan muldasının (təknəvari çökəklik) mürəkkəbliyi, burada hakim küləklərin istiqaməti xüsusi olaraq vurğulanır. Həsən müəllim kombinatın Naxçıvan çökəkliyinə mənfi təsirini, tullantı sularının Araz çayına axması nəticəsində ətraf mühitdə baş verə biləcək fəsadları əsas gətirərək problemin həllinin cavabını tələb etdi. Beləliklə, Həsən müəllimin mübariz xarakteri, iradəsi və nəhayət, inadı hesabına Naxçıvanın ekoloji vəziyyəti təhlükədən xilas oldu.

Bir vaxtlar akademik Həsən Əliyevin çalışdığı AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutuna rəhbərlik etmək bu gün bizim üçün nə qədər qürurverici olsa da, bir o qədər də məsuliyyətlidir.

Sanki hər elmi şurada, elmi müzakirələrdə Həsən müəllimin ruhunun yanımızda olduğunu hiss edirik. Gözəl bir el məsəli var: *“İnsan yad edildikcə yaşar, unudulduqda isə ölərmiş”.* Akademik Həsən Əliyev həmişəyaşar alimdir.

***Əlövsət QULİYEV,***
***AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# “Qarabağ aşıq mühiti” monoqrafiyası işıq üzü görüb

Filologiya elmləri üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin Folklor kafedrasının müəllimi, “Dədə Qorqud” Elmi Tədqiqat Laboratoriyasının elmi işçisi Almara Nəbiyevanın “Qarabağ aşıq mühiti” adlı monoqrafiyası işıq üzü görüb.

Kitabda Azərbaycanın ayrı-ayrı aşıq mühitlərinin, o cümlədən Qarabağ aşıq mühitinin diferensial şəkildə öyrənilməsi yeni-yeni folklor faktlarını üzə çıxarır və Azərbaycan aşıq sənətinin bütövlükdə dəyərləndirilməsi işini asanlaşdırır. Monoqrafiyada aşıq sənətinin əsas mühitlərindən olan Qarabağ aşıq mühitinin ustad aşıqları və el şairləri haqqında maraqlı məlumatlar verilib, onlar tədqiqata cəlb olunub və araşdırılıb.

Araşdırmanın obyekti müasir dövr aşıq yaradıcılığının Qarabağ mühitidir. Klassik Qarabağ aşıqları barəsində xeyli araşdırmalar aparılsa da, bu folklor ocağı indiyə qədər bütünlükdə konkret monoqrafik tədqiqat obyekti olmayıb. Odur ki, elmi işin predmeti Qarabağ aşıq mühitinin folklor və ədəbiyyat tariximizdəki səviyyəsinin müəyyənləşdirilməsindən, onun müasir nümayəndələrinin yaradıcılığının müqayisə və paralellər əsasında filoloji yöndən araşdırılmasından, sənətkarlıq və ifaçılıq məsələlərinin öyrənilməsindən, klassik ənənənin bu mühitin sənətkarlarının yaradıcılığında tutduğu yeri və mühitin özünəməxsus sənətkarlıq xüsusiyyətlərini araşdırmaqdan ibarətdir.

Kitabda müasir dövr aşıq yaradıcılığının Qarabağ mühiti əsasında təhlili gələcəkdə regionlar aspektindən aparılacaq tədqiqatların araşdırma prinsiplərinə cavab verən mülahizələr baxımından nümunə sayıla bilər.

Qarabağ folklorunun araşdırılmasında müstəsna rolu olan bu monoqrafiyanın redaktoru filologiya üzrə elmlər doktoru, professor Səhər Orucovadır. Rəyçiləri Azərbaycan Aşıqlar Birliyinin sədri, filologiya üzrə elmlər doktoru Məhərrəm Qasımlı və professor Nizami Xəlilovdur. Kitabın ali məktəblərdə filoloji təhsildə vəsait kimi istifadə edilməsi nəzərdə tutulur.

Qeyd edək ki, “Qarabağ aşıq mühiti” Almara Nəbiyevanın işıq üzü görmüş sayca beşinci kitabıdır. O, 50-dən artıq elmi məqalənin müəllifidir.




***X.MURADLI,***
***“Azərbaycan”***

# Multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzidir

Multikulturalizm etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən dəyərlərin qorunması və inkişafını nəzərdə tutur. Mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri aləti olan multikulturalizm adətən müxtəlif mədəniyyətlərin eyni zamanda və eyni məkanda sülh və tolerantlıq içində yaşaması deməkdir. Bütün bunlarla yanaşı, multikulturalizm müəyyən birləşmiş cəmiyyət daxilində etnik, irqi, dini və mədəni müxtəlifliklərin qorunmasına və inkişafına yönələn bir siyasətdir.



Bəzi Qərb dövlətləri multikulturalizmi idarə etməyin kifayət qədər mürəkkəb vəzifə olması ilə əlaqədar ondan imtina etməyə başlamışlar. Artıq bir sıra Avropa liderləri (Fransa, Almaniya, İngiltərə) öz ölkələrində multikulturalizm siyasətinin iflasa uğramasını hətta rəsmi olaraq bəyan ediblər. Məsələn, son 10 il ərzində Avropanın inkişaf etmiş ölkələrində baş verən sosial-siyasi gərginliklər fonunda kansler A.Merkel Almaniyada multikultural cəmiyyət qurulması cəhdlərinin tamamilə çökməsini etiraf edib. Fransanın keçmiş prezidenti N.Sarkozi 2011-ci ilin fevralında Fransaya təşrif gətirmiş miqrantların mütləq formada fransız dilini bilmələrinin vacib olduğunu vurğulayaraq, əks halda bunu etməyənlərin onun ölkəsində arzuolunmaz qonaq vəziyyətində olacaqlarını bildirmişdi. Böyük Britaniyanın sabiq baş naziri C.Kemeronun isə multikulturalizm siyasətini kəskin mühakimə etməsi müasir Avropanın mühafizəkarlaşmasını təsdiq edir.

Multikulturalizmi təbliğ edən ölkə onu dövlət ideologiyasının tərkib hissəsi, dövlət siyasəti səviyyəsinə qaldırır. Çünki bir sosial hadisə kimi meydana gələn multikulturalizmin inkişafının sonrakı mərhələləri onun dövlət ideologiyasına, dövlət siyasətinə yüksəlməsi ilə müşayiət olunur. Bu mərhələlərin reallaşmasında əsas rol dövlətə məxsusdur. Bu mənada multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, müasir Azərbaycan cəmiyyətində dəyişməz həyat tərzi kimi təzahür edir. Digər tərəfdən multikulturalizmin vətəndaşların həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Bu mərhələdə vətəndaş cəmiyyəti multikulturalizmin cəmiyyətdə yayılmasında olduqca fəal rol oynayır. Azərbaycanda multikulturalizmin dövlət siyasəti və həyat tərzinə çevrilməsi onun yüksək inkişaf mərhələsindən xəbər verir.

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilib, tolerantlıq və multikulturalizm ənənələri inkişaf etdirilib. Azərbaycan multikulturalizminin siyasi əsasları Konstitusiyanın bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapır.

Ölkəmizin zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması bu gün beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Azərbaycanda bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir. Hazırda bu ideyalar Prezident İlham Əliyev tərəfindən də bir neçə dəfə gündəmə gətirilmiş və demək olar ki, bütün dünyaya Azərbaycan multikulturalizmi modelini təklif etmişdir.

Son illərdə Bakıda və respublikanın digər şəhər və rayonlarında bir-birinin ardınca multikulturalizm mövzusunda beynəlxalq konfranslar, forum və seminarlar keçirilib. Azərbaycan dünya xalqlarına tutduqları ideoloji, sosial-siyasi və mədəni durumlarından asılı olmayaraq dialoqa yönəlmiş baxışlarını təqdimetmə meydanına çevrilib. 2011-ci ildən başlayaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunur. 2016-cı il aprelin 25-27-də Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak etmişlər. Multikulturalizmin bu formada geniş təsbit və tətbiq olunması Azərbaycanın dünyaya olan töhfələrindən biridir.

Azərbaycanda olan tolerant və multikultural reallığın təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, görkəmli elm xadimlərinin, siyasətçilərinin, həmçinin tələbələrin gözü ilə dünyaya təqdim edilməsi də müsbət ənənəyə çevrilməkdədir. “Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi” layihəsi çərçivəsində hazırda dünyanın 13, Azərbaycanın 28 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmi tədris edilir.

Beləliklə, Azərbaycan müxtəlif sivilizasiyaların və mədəniyyətlərin qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır. Azərbaycanın çoxdinli bir ölkə kimi müxtəlif dini azlıqların birgə yaşaması və ölkədəki dözümlülüyün yüksək səviyyədə olması dünyanın aparıcı ölkələri - ABŞ, Almaniya, Fransa, İngiltərə, Rusiya və digər inkişaf etmiş ölkələr tərəfindən qəbul olunur. Xüsusilə, Azərbaycanda müxtəlif məzhəb və din nümayəndələrinin təhlükəsiz şəraitdə sərbəst ibadət etmələri təqdirəlayiq hal sayılır. Ölkəmizdə müsəlmanların xristianlarla yanaşı, yəhudi icmasının və digər dinin nümayəndələri ilə birgə əmin-amanlıq şəraitində yaşaması dünya miqyasında bir nümünə-model kimi qəbul olunur.

Azərbaycan çoxsaylı miqrant axınları qəbul edən ölkələrdən olmasa da, millətin formalaşmasının keçdiyi uzun tarixi yolda müxtəlif etnik, mədəni və dini qruplarla qarşılaşıb. Əlverişli coğrafi mühit, yerli insanların xoş davranışı bu qrupların bəzilərinin Azərbaycana üz tutmasına səbəb olub. Əhalinin ümumi sayında etnik və dini qrupların payının geniş olmasına baxmayaraq, Azərbaycan çoxsaylı etnik və dini qrupların yaşadığı multikultural ərazi hesab edilir.

Multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanda yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, xalqımızın bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır. Son iki əsrdə Ermənistan Azərbaycana qarşı məqsədyönlü şəkildə etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti yürüdür. Bu siyasətinin nəticəsi olaraq Ermənistan Azərbaycanın iyirmi faiz torpaqlarını işğal edib. Ermənistan monoetnik dövlətə çevrilib. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan tarixin bütün dönəmlərində öz multikultural dəyərlərinə sadiq qalıb. Təsadüfi deyildir ki, Azərbaycanda 80-dən çox etnosun nümayəndələri azərbaycanlılarla yanaşı yaşayır, həmçinin erməni mənşəli vətəndaşlarımız da var. Bütün bunlar multikulturalizmin ən bariz nümunəsidir.

Milli azlıqlar Azərbaycan əhalisinin 9,4%-ni təşkil edir. Etnik müxtəlifliyin ölçülməsində istifadə edilən etnik fraqmentləşmə indeksinə görə, Azərbaycan Böyük Britaniya, Fransa, Hollandiya, İtaliya kimi ölkələrdə olan müxtəliflikdən zəngindir. Fearon indeksi də Azərbaycanda etnik zənginliyin bəzi Avropa ölkələrindən yüksək olduğunu təsdiq edir. Hazırda Azərbaycanda ölkə əhalisinin mütləq əksəriyyətini (90,6%) çoxluq təşkil edən azərbaycanlılarla yanaşı, bir sıra millətnik azlıqlar - ləzgilər (2%), ruslar (1,3%), talışlar (1,3%), avarlar (0,6%), tatlar (0,4%), gürcülər (0,2%), kürdlər (0,2%), ukraynalılar (0,4%), yəhudilər (0,2%) yaşayır.

Azərbaycanda multikultural proseslərin hazırkı vəziyyətini daha yaxşı anlamaq üçün onu digər Cənubi Qafqaz ölkələri ilə müqayisə etmək olar. Qeyd edək ki, bir-biri ilə qonşu olan hər üç dövlət - Azərbaycan, Ermənistan və Gürcüstan eyni ildə sovet işğalı altına düşüb, eyni ildə də azadlıq əldə ediblər. Hər üç dövlət, xüsusilə müstəqilliyin ilk illərində etnik problemlərlə qarşılaşıb. Gürcüstan Abxaziya və Osetiyada, Azərbaycan və Ermənistan isə Dağlıq Qarabağda etnik münaqişə ilə üzləşməli olub.

Gürcüstanda əhalinin 13,2 faizi etnik və ya milli azlıqlardan, o cümlədən azərbaycanlılar (6,3%), ermənilər (4,5%), ruslar (0,7%) və osetinlərdən (0,4%) ibarətdir. Ermənistanda isə ermənilər ölkə əhalisinin tam əksəriyyətini - 97,9 faizini, etnik və ya milli azlıqlar isə ümumi əhalinin təxminən 1,9 faizini, o cümlədən, yezidi kürdlər 1,2%, ruslar 0,4%, aysorilər 0,09%, kürdlər 0,07% təşkil edir.

“Human Rights Without Frontiers” təşkilatının Azərbaycanda milli azlıqlara dair hesabatında qeyd olunur ki, son dövrlərə qədər Azərbaycanda etnik və ya milli zəmində ciddi problem yaşanmayıb. Ölkənin tarixi, iqtisadi və mədəni xüsusiyyətləri əhalinin mədəni müxtəlifliyinə şərait yaradıb.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır”.

Azərbaycanda hər kəsin milli kimliyi onun bu gün özünü azərbaycanlı kimi hiss etməyinə mane olmur. Hər kəs öz ana dilində danışa, yaza bilər və özünün digər vacib olan mədəni ehtiyaclarını ödəyə bilər. Konstitusiyamızın “Milli mənsubiyyət hüququ” adlı 44-cü maddəsində göstərilir: “Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz”.

Multikultural təhlükəsizliyin Azərbaycan nümunəsindəki təhlili göstərir ki, onun prinsiplərinə məqsədyönlü şəkildə riayət etdikdə ölkənin həm daxili potensialının öz zənginliklərini ən dərin qatlardan daha həvəslə üzə çıxarır, həm də öz beynəlxalq nüfuzuna müsbət çalar əlavə edir. Azərbaycan çoxmillətli, çoxmədəniyyətli bir dövlət olaraq dünyaya bir örnəkdir. Ölkəmizdə mövcud olan multikulturalizm, tolerantlıq mühiti dünyanın ən sivil ölkələrinə belə nümunə olmaq əzmindədir. Bu gün Azərbaycan milli və dini birgəyaşayışın ən sivil formasını bütün dünyaya göstərir.

***Fərid MƏMMƏDHƏSƏNOV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müdavimi***

◆ Unudulmazlar

# Təbiətin Səttar rəngi



**"Mən rəssamam. Rəssamlıq mənə inamımı, ümidimi həyata keçirmək üçün nəfəs aldığım həyatımdır. Fikrimi, düşüncəmi yazmaqdan daha çox fırça işlətməyi sevirəm. Bütün yaradıcılığımı səni - doğma diyarı tərənnüm etməyə həsr etmişəm. Bunu böyük iftixar hissi ilə deyirəm. Bundan sonra yüz ömrüm olsa, yenə də səni vəsf etməyə həsr edərəm..."**

*Bu gün onun günüdür...*

*Tanrının ən nadir, qeyri-adi canlı əsərlərindən birinin...*

*Yaraşıqlı boy-buxunu, sirli-sehirli, mənalı, kədərli mavi gözləri, uzun barmaqları, qəribə saç düzümü, sadə görkəmi ilə elə Yaradan da onu Yer üzünə nadir, qeyri-adi rəsm əsərləri yaratmaq üçün göndərmişdi. O dəniz ənginlikli gözləri ilə ana yurdun min bir rəngini, al-əlvan təbiətini, zümrüd meşələrini, axar çaylarını ecazkar tablolara köçürmək üçün rəssam kimi doğulmuşdu... Doğma Azərbaycanı başdan-başa böyük məhəbbətlə dolaşıb onun təbiətinə vurğunluğunu bənzərsiz gözəllikdə dünyaya göstərmək, tanıtmaq üçün yaradılmışdı...*

*Bu gün onun günüdür... Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri, Əməkdar incəsənət xadimi, Xalq rəssamı, Azərbaycan SSR Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin...*

## Qrafikadan rəngkarlığa...

110 il əvvəl ayazlı-şaxtalı qışın bu günü Bakının Əmircan kəndində dolanışığını şəxsi təsərrüfatından çıxaran Bəhlul kişinin ailəsində iki qızdan sonra oğul dünyaya göz açır. Ata elə həmin ilin yanvarında vəfat edən Səttar adlı oğlunun adını yeni doğulmuş körpəyə qoyur.

Səttar hələ uşaqlıqdan qeyri-adiliyi ilə seçilir. Qumun üzərində qəribə şəkillər çəkir, taxtadan fiqurlar, oyuncaqlar düzəldir. Əmircanda məşhur Xilə xalçalarının toxunulmasına şahidlik edərək rənglər aləminin sirrinə vaqif olmağa başlayır. Böyüdükcə canlı təbiətin, güllü-çiçəkli bağların, ucsuz-bucaqsız zəmilərin vurğununa çevrilir. Amma ovaxtlar bəlkə özü də bilmirdi ki, illər sonra bu təbiət, allı-güllü təsvirlər ürəyindən fırçasına süzülüb, kətana köçəcəkdi. Qızılgüllər, bənövşələr, lalələr, qərənfillər onun əsərlərində canlanacaqdı, alma, nar, albalı, ərik ağacı bolluq rəmzi olacaqdı. Bütün gözəlliklər ən müxtəlif tablolarla bütöv Azərbaycanın rəsm qalereyasına çevriləcəkdi...

Xasiyyətcə sakit biri olan Səttar riyaziyyatı yaxşı bildiyindən hər kəs onun gələcəkdə riyaziyyatçı olacağına inanırdı. Qonşuluqda, yoldaşları arasında bu fəndən çətinə düşən uşaqlara kömək etməkdə ad çıxarmışdı. Onun rənglərə olan marağı hamıya ötəri hiss təsiri bağışlayırdı. Lakin rənglər dünyasının cazibəsindən çıxa bilməyən Səttar 1927-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna daxil olur. Hələ texnikumda tələbə ikən 1931-1933-cü illərdə "Kommunist" qəzetinin baş rəssamı, görkəmli fırça ustası Əzim Əzimzadənin dəvəti ilə orada çalışır. S.Bəhlulzadənin mətbuatda çalışmasını, burada müxtəlif mövzuda və janrda qrafik rəsmlər çəkməsini onun qrafikaya olan marağının başlanğıcı saymaq olar.

Qrafika sənətində əvəzedilməzliyini elə zamanında təsdiqləyən Ə.Əzimzadə gənc S.Bəhlulzadənin simasında özünün gələcək davamçısını görürdü. Ona görə də Səttarın bu sahədə ali təhsil almasını istəyirdi. Odur ki, 1933-cü ildə ali təhsil almaq arzusu ilə Moskvaya yollanan Səttarın V.İ.Surikov adına Rəssamlıq İnstitutunun Qrafika fakültəsinə qəbul olunması əslində, həm də sevimli müəlliminin istəyinin göyərməsi idi. Sağlığında S.Bəhlulzadə Moskvadakı təhsil illərini xatırlamaqdan usanmaz, dövrünün görkəmli qrafikləri olan V.A.Favorski, P.Y.Pavlinov, K.N.İstomin və L.A.Brunidən sənətin bu növünün incəliklərinə yiyələndiyini fəxrlə söyləyərdi. Doğrudan da, Səttar bu görkəmli sənətkarlardan, xüsusilə də bilavasitə emalatxanasında çalışdığı V.A.Favorskidən qrafikanın texniki və bədii ifadə vasitələrini öyrənə, bunu bütün yaradıcılığı boyu çəkdiyi qrafik əsərlərin əlçatmaz bədii məziyyətləri ilə təsdiqləyə bilmişdi.

Lakin elə təhsil illərində Səttarın həyatında önəmli bir hadisə baş verir. Özü də hiss etmədən onun qeyri-adi rəng duyumunu müəllimləri aşkarlayır və buna biganə qalmırlar. Krımda keçirilən yay təcrübəsi zamanı Səttarın uğurlu rəngkarlıq etüdlərini görən məşhur rəssam Q.M.Şeqal ona Rəngkarlıq fakültəsinə keçməyi təklif edir. Səttar da tərəddüd etmədən bu təklifə razılıq verir. Beləliklə, Səttar Bəhlulzadə üçüncü kursdan başlayaraq institutda Şeqalın rəhbərlik etdiyi emalatxanada təhsilini davam etdirir, realist sənət ənənələrini dərindən mənimsəyir. Bununla belə, o, qrafikaya sevgisini bütün yaradıcılığı boyu qoruyub saxlayır.

S.Bəhlulzadə Moskvada diplom işi üçün Babək mövzusunu seçir. Başqalarından fərqlənərək diplom işi olaraq bir yox, iki əsər - "Babək üsyanı" və "Bəzz qalasının müdafiəsi" tablolarını işləyir. Lakin II Dünya müharibəsinin başlanması ona diplom müdafiə etməyə imkan vermir. Diplomsuz qalan rəssama müharibədən sonra dəfələrlə Moskvaya gəlib diplom işini müdafiə etmək təklif olunsa da, o, buna "Məgər diplomsuz rəssam olmur?" deyərək etiraz edir...



## "Vətən torpağı əsl ilham mənbəyidir"

Moskvadan qayıtdıqdan sonra S.Bəhlulzadənin yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin təsviri ("Babək üsyanı", "Fətəli xan", "Xəttat Mir Əli" və s. ) əsas yer tutur. Müharibədənsonrakı illərdə Abşeronun neft mədənlərini, bağ və kəndlərini təsvir edən rəsmlər yaradır. Lakin mənzərə janrı onu daim özünə cəlb edir. Yaradıcılığında təbiət təsvirlərinə meyil getdikcə güclənir, mənzərə janrında daha bitkin əsərlər yaratmağa başlayır.

Ümumiyyətlə, 40-cı illər rəssamın yaradıcılıq həyatında axtarış illəri, dəzgah boyakarlığı və qrafikasının müxtəlif janrlarında səmərəli fəaliyyət dövrü olub. 50-ci illərdən S.Bəhlulzadənin bədii axtarışları əvvəlkinə nisbətən daha ardıcıl, məqsədəuyğun istiqamətdə aparılır. Respublikamızın bir çox rayonlarında - ən çox isə Quba, Lənkəran, Şamaxı, Şuşa, Şahdağın ətəklərində və Göy göl sahillərində bilavasitə naturadan çəkilmiş kiçik etüdlər, iri həcmli epik mənzərə - tablolar yaradır.

60-cı illərdə S.Bəhlulzadənin yaradıcılıq təcrübələrində yeni cəhətlər üzə çıxır. O, həyata, canlı təbiətə daha fəal nüfuz etməyə başlayır. Bu baxımdan "Xəzərdə axşam çağı", "Torpağın arzusu", "Oyanma", "Kəpəzin göz yaşı", "Tut ağacları", "Əbədi məşəl", "Qüdrətli ağac" tablolarının hər birində qırılmaz vəhdətdə birləşdirilən zəngin kolorit ayrıntıları daha ifadəlidir. Vətən torpağının gözəllik timsalı kimi tərənnümü S.Bəhlulzadənin tam bir silsilə tablolarının ana xəttini təşkil edir. Onun "Sərv ağacları", "Şamaxı üzümlükləri", "Laza kəndinin şəlalələri", "Qədim Şamaxı", "Şahnabat şəlalələri", "Bilgəh", "Çiçəklənən ağaclar", "Gəncə çinarları", "Çiçəklənən badam ağacı", "Buzovna bülluru" və digər lövhələrində Səttar fırçasının əbədi silinməz izləri yaşayır.

O, Azərbaycanın hər rayonunu qarış-qarış gəzərək oranın mənzərəsini min bir boya ilə canlandırıb. Özünün dediyi kimi, "Mən ilham və natura ardınca Qogen kimi baş götürüb Taiti adasına getmirəm və bunu başqalarına da məsləhət görməzdim. Çünki doğma xalqın həyatı, Vətən torpağı əsl ilham mənbəyidir".

## Sənətin Məcnunu...

Onun mənzərə-peyzajlarında, natürmortlarında incə xalça ornamentlərinin düzülüşünü əks etdirən ənənəvi xalq yaradıcılığı motivləri hiss edilir. "Mənim bir rəssam kimi yetişməmdə üç müdrik sənətin böyük təsiri olub. Qədim xalça va miniatür sənətimiz, bir də Füzulinin odlu, alovlu poeziyası". Bəli, o, Füzulini dəlicəsinə sevirdi. "Leyli və Məcnun"u əzbər bilirdi. Elə bu məhəbbətdən də "Füzuli", "Leyli", "Məcnun"... əsərləri doğulmuşdu.

Bütün ömrü boyu dilindən dahi Füzulinin qəzəlləri əskik olmayan Səttarın şairin ölməz poeziyasına həsr etdiyi yüzlərlə əsəri göstərir ki, Məcnunun halına yana-yana özü də sənətin Məcnununa dönüb. Səttarı sənətin Məcnununa çevirənsə rənglərə və doğma torpağa vurğunluğu olub...

Amma onun özü də elə Məcnun eşqi yaşayıb. Hələ gəncliyində mavi gözlü bir Marala könül verib... Sevdiyi rəssam qadınla birlikdə Moskvada eyni vaxtda təhsil almışdılar. Lakin Səttar qızı nə qədər çox sevsə də, sevdiyi xanım həmişə ona dost kimi yanaşır. Bir müddətdən sonra rəssam xanım başqa biri ilə ailə həyatı qurur, ancaq çox keçmir ki, ayrılmalı olur. Sevgisi daşa dəyən rəssam isə heç vaxt evlənmir, tək-tənha ömür sürür. Eşqi çəkdiyi lirik rəsmlərində göstərir, yaradıcılığında dəfələrlə Məcnun obrazını canlandırır. Qəlbi kimi saf, bakirə təbiəti özünə yaxın, məhrəm bilir, eşqini təbiətlə bölüşür. Mikayıl Abdullayevin təbirincə desək, o, insanların ruhunu və zövqünü oxşamaq, "həyat gözəllikdir" həqiqətini sənəti ilə sübut etmək üçün öz taleyini, şəxsi həyatını əbədi sənət yolunda qurban verir.

Amma təəssüf ki, bu sənət yolunda zaman-zaman paxıllıqlara, haqsızlıqlara tuş gəlir. Bəzən yaratdıqları heç də hamı tərəfindən dərk edilmir, sevilmir, qəbul olunmur.

Axı impressionizm üslublu, yeni gördüklərini olduğu kimi yox, ondan aldığı təəssüratı, adi gözlə görünməyən boyaları və çalarları kətana köçürdüyü əsərlərində Səttar duyğularının ifadəsi olan rəngləri duymaq üçün məhz böyük ürəyə, yaradıcı duyuma malik olmaq lazım idi.

Bəzən haqqında mənfi fikirlər söylənilir. Bəzən sənətdə maneələr yaradılır. Bəzən də qonorarı azaldılır. Rəssamın özü sənətşünas Ziyadxan Əliyevə danışmışdı ki, 60-cı illərin əvvəllərində Moskvada təşkil olunan Ümumittifaq sərgisində onun "Xəzər gözəli" əsərini görən Qazaxıstan Mədəniyyət Nazirliyinin əməkdaşları müəllifin ardınca Bakıya gəliblər: "Onlar rəssamla görüşdükdən sonra həmin əsəri Qazaxıstan Dövlət Rəsm Qalereyası üçün almaq istədiklərini bildiriblər. Səttar isə artıq əsərin Azərbaycan Dövlət İncəsənət Muzeyi üçün alındığını söyləyib. Bu cavabı eşidən qonaqların əhvalı pozulur. Söhbət vaxtı onlar maraq xatirinə rəssamdan əsərin neçəyə alındığını öyrənməyə, Səttar isə bunu gizli saxlamağa çalışır. Qazaxıstanlılar əsərin geri alınmasının mümkünlüyünü dilə gətirməklə ona 25 min rubl verməyə hazır olduqlarını bildiriblər. Yenə də razılıq ala bilməyəndə rəssamdan heç olmasa ona əsər üçün verilən qonorarın miqdarını söyləməyi xahiş ediblər. Səttarın "600 rubl" sözündən sonra qazaxıstanlı qonaqlar uzun müddət çaşqınlıqdan özlərinə gələ bilməyiblər. Ən sonda onlar heç olmazsa bu əsəri rəssamdan təkrar etməyi xahiş ediblər. Rəssamsa "Təkrarçılıqla məşğul olmuram" cavabını verib. Əsərə bu məbləğin verilməsi rəsmi dairələrin o vaxtlar Səttar Bəhlulzadəyə qarşı apardıqları mənəvi təzyiqlərin sınanılmış forması idi. Qeyd edim ki, Səttarın digər işləri də özünəbab rəssamlarla müqayisədə ucuz qiymətə alınıb. Səhv etmirəmsə, onun ən yüksək qiymətə (4 min rubl) alınan əsəri iki ilə tamamladığı "Mənim anam" tablosudur..."

Yeri gəlmişkən, Səttar bənzərsiz tablolarından olan "Mənim anam" (1974) əsərini anasına ithaf etmişdi. Amma o, doğma anasının cizgilərini illər öncə Kəlbəcərdə eskizlərə köçürmüşdü. Orada ona ana məhəbbətilə qulluq edən, dərisi qırış-qırış olmuş, bət-bənizi solmuş, barmaqları işləməkdən incəlmiş, damarları çıxmış, mülayim çöhrəli, nurlu baxışlı, başı çarğatlı bir ananı rəssam gözü ilə seyr edir, gələcək obrazın cizgilərini xəyalında canlandırırdı. İllərlə ürəyində gəzdirdiyi bir arzunun gerçək başlanğıcını bu-rada tapmışdı. Kəlbəcərli ananın vücudunda öz anasının ruhunu görmüş və bu məqamı yaddaşına yazıb, əzizləyib, nəhayət, illər sonra istədiyi tablonu yaratmışdı.

## İkiotaqlı mənzilini Tahir Salahova hədiyyə edir

Bəli, qonorar, pul Səttar Bəhlulzadəni maraqlandırmırdı. Maddiyyat onun üçün önəmli olsaydı, əsərlərini hədiyyə verməzdi. O qədər əliaçıq, səxavətli idi ki, rəsmlərini ürəyinə yatan insanlara təmənnasız bağışlayırdı. Bu gün bəlkə də Azərbaycanın neçə ucqar kəndində Səttar Bəhlulzadənin əsərləri divardan asılıb.

Bu yerdə qeyd edək ki, daha çox ecazkar mənzərələri ilə tanınan Səttar Bəhlulzadə qrafik əsərlərini uzun müddət ictimaiyyətə göstərməyib. Amma 1966-cı ildə baş verən bir hadisə ona özünün qrafik yaradıcılığına göz qoymağa məcbur edib. O vaxt Çexoslovakiyadan Bakıya gələn və Azərbaycan rəssamlarının yaradıcılığı ilə tanış olan xarici nümayəndə heyətini Səttarın da emalatxanasına aparırlar. Orada rəssamın qrafika əsərlərini görən qonaqlar həmin lövhələrin Praqada nümayiş olunmasına qərar verirlər. Beləliklə, 1966-cı ilin payızında Praqa qalereyasında Səttar Bəhlulzadənin qrafik əsərlərindən ibarət fərdi sərgisi açılır. Bu, sovet dönəmində Azərbaycan rəssamının xarici ölkədə açılmış ilk sərgisi idi. Sərgidən sonra rəssam tuşla işlənmiş bir neçə qrafik lövhəsini Praqa Milli Qalereyasına hədiyyə verir. Bunun müqabilində ona təklif olunan böyük qonorardan da imtina edir.

Elə bu məziyyətlərinə görə də S.Bəhlulzadənin əsərlərinin dəqiq sayı bilinmir. Bu gün dünyanın müxtəlif ölkələrində, nüfuzlu muzey və şəxsi kolleksiyalarda onun əsərləri saxlanılır. Azərbaycanda və keçmiş SSRİ məkanındakı muzeylərdə 200-ə qədər rəngkarlıq, 30-a qədər qrafik işi var. Son araşdırmalar nəticəsində 600-ə qədər müxtəlif ölçülü tablo, 200-ə qədər qrafika nümunəsi yaratdığı müəyyən edilib. Onların da çoxunun saxlandığı dəqiq ünvan məlum deyil...

Daim gənc rəssamlarla əhatələnməsindən xüsusi zövq alan Səttar onların ali təhsil almalarına şəxsən qayğı göstərir, mənəvi və maddi dəstək duraraq atalıq qayğısını əsirgəmirdi. Hətta ötən əsrin 50-ci illərinin sonunda Moskvada təhsilini başa vurub ailəsi ilə birlikdə Bakıya qayıdan xalq rəssamı Tahir Salahovun mənzilinin olmadığını bilən Səttar Bəhlulzadə paytaxtda yeni tikilən "Rəssamlar evində" özünə ayrılmış ikiotaqlı mənzili gənc həmkarına hədiyyə edir. Bu da rəssamın dünya malında gözü olmadığının böyük sübutu idi.

Səttar dostluğa da sadiq olub. Bu böyük sənətkarın şəxsiyyət dahiliyi onun uşaq səmimiyyətindən başlayırdı. Yaradıcı dostlarına münasibəti bir başqa idi. Böyük bəstəkar Arif Məlikov danışmışdı bunu: "Bir dəfə xaricdən Səttar üçün boyalar və fırçalar gətirdim. Hollandiya fırçaları ən yaxşısı hesab olunur. 1-dən 50-yə qədər nömrələnmiş bu fırçalarla işləmək asan və keyfiyyətlidir. Səttarın emalatxanası da insana möcüzəli təsir bağışlayırdı. Yerdə, künc-bucaqda qurumuş nar, müxtəlif rənglərdə sarı, qırmızı, bənövşəyi çiçəklər, heyva, bardaq, bir sözlə, cürbəcür şeylər olardı. Gətirdiyim həmən fırçaları gildən düzəldilmiş bardağın içinə qoydu. Dedim, Səttar, bunları işləmək üçün almışam, buket kimi gətirməmişəm. Cavab verdi ki, "yox, Arif, mən barmaqlarımla da şəkil çəkə bilərəm. Bu, sənin hədiyyəndir. Burada çiçək kimi durmalıdır".

Belə insan idi Səttar Bəhlulzadə. Sənəti qədər şəxsiyyəti də bənzərsiz olan əsl insan... Sadə, qeyri-adi, qəribə görkəmli, nimdaş geyimli, bu dünyanın adamı olmayan sənət dərvişi... Öz dünyası vardı onun. Rəsmlərini işləyəndə də tərki-dünya olurdu sanki. Hər şeyi unudurdu. Elə bil nə acırdı, nə susayırdı. 10-12 saat, bəzən də bütün sutkanı dayanmadan işlədiyi vaxtlar olurdu. Rejimsiz, gərgin iş, az yemək və çoxlu siqaret çəkmək də təbii ki, rəssamın səhhətinə mənfi təsir edir. Və o, amansız xəstəliyə tutulur.

## Rəssam ömrünün sonu...

Səttar Bəhlulzadə həyatda bir çox acılara, ağrılara sinə gərib, dərdini adamlarla bölüşmədiyindən yaxınları xəstəliyindən gec xəbər tuturlar. Rəssamın vəziyyəti günü-gündən pisləşdiyindən 1973-cü ilin avqustunda onu Sabunçuda yerləşən xəstəxananın yoluxucu xəstəliklər şöbəsinə yerləşdirib, yanlış sarılıq diaqnozu qoyurlar. Dostları hər gün ona gül, meyvə aparırlar. 39 dərəcə qızdırması olmasına baxmayaraq o, həmin güllərin və meyvələrin şəkillərini çəkib divarlara yapışdırır.

Vaxt keçir, rəssamın səhhətində heç bir irəliləyiş gözə çarpmır. Elə həmin ərəfədə onun Moskvada ilk fərdi sərgisi açılır. Öz sərgisində ürəkdən iştirak etmək istəyən rəssam dostlarına deyir: "Oğlum yox, qızım yox evləndirib toylarını edəm. Özümün də toyum olmayıb, evlənməmişəm. 64 yaşım var. Ömrümdə ilk dəfə Moskvada fərdi sərgim açılıb, lakin rəsmi adamlar, həkimlər icazə vermirlər ki, gedib öz toyumu-sərgimi görüm". Onun bu sözlərindən xeyli duyğulanan dostları ölümlə çarpışan Səttarı Moskvaya göndərməyə müvəffəq olurlar. Rəssam fərdi sərgisində iştirak edir, üç gün sonra da əməliyyat olunur.

Əməliyyatdan sonra xəstəliyi, 1 il ömrü qaldığı haqqında heç bir məlumatı olmayan Səttar xeyli arıqlamağına və zəifləməyinə baxmayaraq, böyük mənəvi və fiziki qüvvə sərf edərək durmadan çalışır, yeni əsərlər yaradır. Füzulinin eşq qəzəllərinin zümzüməsində, İ.S.Bax musiqisinin sədasında Səttar fırçası öz sənət zirvəsini fəth edir...

*1974-cü il yağışlı oktyabr ayının 13-də ömrünün 65-ci ilində Səttar Bəhlulzadə Moskvada qəmli gözlərini əbədi olaraq yumur. Fəxri xiyabanda dəfn olunmasına icazə verilməyən rəssam öz vəsiyyətinə uyğun olaraq Əmircanda anasının yanında torpağa tapşırılır. Qəlbindəki eşqi, sevgini, vətənin gözəlliyini, şəxsiyyətinin böyüklüyünü, bənzərsizliyini, tənhalığını ecazkar tablolara köçürən, həyatını sənətinə qurban verən, rəvan ömür yaşamayan dahi sənətkar öz doğma kəndində, hamıdan çox sevdiyi anasının yanında əbədi rahatlığa qovuşur...*

**Xəyalə MURADLI,**
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Maliyyə Nazirliyi *tender elan edir*

**Tenderi keçirən: Azərbaycan Respublikasının Maliyyə Nazirliyi**
**Ünvan: Bakı şəhəri, Az 1022, S. Vurğun küçəsi, 135**

1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında elektrik sistemləri və avadanlıqlarının 2020-ci il ərzində texniki xidmətlərinin satın alınması.
2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında yanğına qarşı mühafizə sistemlərinin (avtomatik və su ilə söndürmə sistemləri) 2020-ci il ərzində texniki xidmətlərinin, yanar hissələrin yanmayan maye ilə hopdurulması, yanğın balonlarının doldurulması işlərinin satın alınması.
3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında havalandırma, soyutma və isitmə sistemlərinin, su və kanalizasiya sistemlərinin 2020-ci il ərzində texniki xidmətlərinin satın alınması.
4. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin inzibati binasında mühafizə sistemlərinin (giriş-çıxış nəzarət sistemi, video müşahidə sistemi), daxili şəbəkənin, İP müşahidə sisteminin, iş vaxtının uçotu proqramı təminatının 2020-ci il ərzində texniki xidmətlərinin satın alınması.
5.Liftlərə texniki xidmət işlərinin satın alınması.
6. Maliyyə Nazirliyinin Aparatındakı Hesablama texnikası və elektrotexniki avadanlıqlara (kompüter, printer, surətçıxaran və skanerlərə) 2020-ci il ərzində texniki xidmətin satın alınması.
7. Sanitar qovşaqları üçün sərfiyyat materiallarının satın alınması (Kimberly-Clark avadanlığlarına uyğun) (15 növdə).
8. İnzibati binanın təmizlik xidmətinin və tullantıların atılması işlərinin satın alınması.

**Göstərilən 8 LOT üzrə açıq tender üçün iştirak haqları elektron portalda həmin LOT üzrə səhifədə göstərilmişdir.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müvafiq LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tenderdə iştirak haqqı bu hesaba köçürülməlidir:**

**A1.** Benefisiar (alan) bank
**Adı** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi
**Kodu:** 210005
**VÖEN:** 1401555071
**Müxbir hesab:** AZ41NABZ01360100000000003944
**S.W.İ.F.T.** BİK: CTREAZ22

**B2.** Alan təşkilat: Azərbaycan Respublikası Maliyyə Nazirliyi
**Hesab №-si** AZ83CTRE00000000000002108571
**Büdcə səviyyə kodu** - 7
**Büdcə təsnifat kodu** - 142340
**VÖEN:** 1400108191

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 8 yanvar 2020-ci il saat 11:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 16 yanvar 2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri Elektron Portalda hər LOT üçün təyin edilən tarixdə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Voleybol üzrə Azərbaycan çempionatının yeni mövsümünə start verilib

Dekabrın 14-də qadın voleybolçular arasında Azərbaycan Super Liqasının 2019-2020-ci il mövsümünə start verilib.

AZƏRTAC xəbər verir ki, çempionatın açılış oyununda "Azərreyl" və "Abşeron" komandaları üz-üzə gəliblər. Maraqlı idman mübarizəsi şəraitində keçən oyunda "Azərreyl" komandası 3:1 hesabı ilə qalib gəlib.

Oyun başa çatdıqdan sonra həm qadın, həm də kişi voleybolçular arasında ölkə çempionatlarının açılış mərasimi keçirilib.

Azərbaycan Voleybol Mərkəzində təşkil olunan mərasimdə əvvəlcə iştirakçı komandaların paradı olub.

Federasiyanın prezidenti Cavid Qurbanov mərasimdə çıxış edərək ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından və atletlərimizin beynəlxalq arenada qazandıqları nailiyyətlərdən danışıb. C.Qurbanov qeyd edib ki, ölkəmizdə uğurlu idman siyasətinin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda bu siyasət dövlət başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Azərbaycan Prezidenti idmanın digər növləri kimi, voleybolun da inkişafını diqqət mərkəzində saxlayır. Ümumiyyətlə, ölkəmizdə idmançıların sosial rifahının yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır.




Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra C.Qurbanov çempionatı açıq elan edib.

Kişi voleybolçuların çempionatında "Sərhədçi", MOİK, "Neftçi", "Murov", "Xilasedici", "Azərreyl", "Ekspress" və Gürcüstan yığması iştirak edirlər. Qadınların mübarizəsində isə UNEC, "Murov", "Abşeron", "Mübariz", "Azərreyl" və Gürcüstan millisi birincilik uğrunda yarışırlar.

Çempionatın oyunları Hövsan Olimpiya İdman Kompleksində, "Sərhədçi" İdman Olimpiya Mərkəzində, "Lokomotiv" klubunun, FHN-in, eləcə də Azərbaycan Voleybol Federasiyasının idman zallarında baş tutacaq. Yarışın final mərhələsi Bakı İdman Sarayında təşkil olunacaq.

# Müdafiə Nazirliyinin nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları-2020"yə dair konfransda iştirak edib



Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin idarə rəisi, general-mayor Ənvər Əfəndiyevin rəhbərlik etdiyi nümayəndə heyəti "Beynəlxalq Ordu Oyunları-2020" yarışlarının Moskvada keçirilən ilkin planlaşdırma konfransında iştirak edib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir zamanı yarışların şərtləri və qaydaları, hazırlıq işləri müzakirə olunub. Həmçinin müsabiqənin təşkil olunacağı ərazilərə baxış keçirilib.

"Beynəlxalq Ordu Oyunları-2020" yarışlarının gələn il avqustun 23-dən sentyabrın 5-dək keçirilməsi planlaşdırılır.

# Şəki növbəti dəfə Prezident Kuboku uğrunda çövkən milli oyununa evsahibliyi edir

Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən yaradılan və Şəki rayonunun Daşüz kəndində yerləşən Respublika Milli Atüstü Oyunları Mərkəzində Prezident Kuboku uğrunda milli atüstü oyunlarının keçirilməsi artıq ənənə halını alıb. Oyunlar respublika ictimaiyyətində böyük marağa səbəb olmaqla xalqımızın qədim tarixi ənənələrinin bərpasına və dirçəldilməsinə xidmət edir.

Dekabrın 13-də Respublika Milli Atüstü Oyunları Mərkəzində Prezident Kuboku uğrunda çövkən milli oyunu üzrə yarışlar başlanıb.

AZƏRTAC xəbər verir ki, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı, Şəki Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən yarışlarda Şəki, Ağcabədi, Ağstafa və İsmayıllı Regional Mədəniyyət idarələrinin təmsilçiləri, həmçinin Bakı şəhərinin "Buta", "Qala", "Qarabağ", "Köhlən", "Murad", "Omar", "Polad" və "Sərhədçi" komandaları mübarizə aparırlar.






Dekabrın 14-də Prezident Kuboku uğrunda çövkən oyunu üzrə yarışların rəsmi açılış mərasimi olub. Tədbirdə Mədəniyyət Nazirliyinin, Atçılıq Federasiyasının, Şəki Şəhər İcra Hakimiyyətinin rəsmiləri, nazirliyin regional idarələrinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Açılış mərasimində bildirilib ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqımızın yenidən sahib olduğu milli dəyərlər sırasında atüstü milli oyunlar ön cərgələrdə yer tutur. Son illər ölkəmizdə qədim tarixə malik atçılıq ənənələrinin bərpasına, atüstü milli oyunlarımızın qorunub saxlanılmasına xüsusi diqqət göstərilir. Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə Şəki rayonunda yaradılan Respublika Atçılıq Turizm Mərkəzi (hazırda Respublika Milli Atüstü Oyunları Mərkəzi adlanır) xalqımızın qədim tarixi ənənələrinin bərpasına və dirçəldilməsinə çox böyük töhfələr verir. Mərkəzin yaradılmasında əsas məqsəd milli atüstü oyunlara yeni həyat vermək, ölkəmizdə atçılıq turizmini təbliğ etmək, gənc nəsildə bu sahəyə maraq oyatmaqdır.

Vurğulanıb ki, UNESKO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 2013-cü ilin dekabrında Bakıda keçirilən 8-ci sessiyasında Azərbaycanın çövkən oyununun təşkilatın Təcili Qorunmaya Ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınmasının çox böyük əhəmiyyəti var. Çövkən oyununun bu siyahıya daxil edilməsi ölkəmizdə mədəni irsin qorunması sahəsində həyata keçirilən tədbirlərin, aparılan məqsədyönlü işin məntiqi nəticəsidir.

Musiqi kollektivinin çıxışından sonra komandalar cəngi sədaları altında tribunanın önündən keçərək meydana daxil olublar.

Sonra tamaşaçılar Şəki və "Qarabağ" komandaları arasında oyunu izləyiblər. Gərgin keçən qarşılaşmada Şəki rayonunun təmsilçisi 2:0 hesabı ilə qalib gəlib.

Bir gün əvvəl keçirilən qrup oyunlarında isə aşağıdakı nəticələr qeydə alınıb:

"Omar" - "Murad" 5:1, "Polad" - "Qarabağ" 8:1, "Buta" - "Köhlən" 3:0, "Sərhədçi" - "Qala" 4:1.

Qrup oyunları dekabrın 16-dək davam edəcək. Yarımfinal və final qarşılaşmaları dekabrın 22-24-də Bakıda, Binə Atçılıq Mərkəzində keçiriləcək. Yarış qaliblərinə Mədəniyyət Nazirliyinin diplomu və pul mükafatları təqdim ediləcək.

# Beynəlxalq aləm

## Vaşinqton və Pekin razılığa gəldilər



Bir neçə ay davam edən rüsum artırılması və qarşılıqlı təhdidlərdən sonra dünyanın iki ən böyük iqtisadiyyatı ticarət müharibəsinə son qoymaq istiqamətində ilk addımlar atmışlar. Vaşinqtonla Pekin sövdələşmənin birinci mərhələsinin həyata keçirilməsi barədə razılıq əldə etmişlər. Bu barədə "Euronews" telekanalı xəbər verir.

Lakin bu razılaşma əvvəllər tətbiq olunmuş rüsumların ləğv olunması mənasına gəlmir. ABŞ Prezidenti Donald Tramp Twitterdə bildirmişdir ki, tərəfdaşlar "çoxsaylı struktur dəyişikliklərinə, kənd təsərrüfatı məhsulunun, enerji daşıyıcılarının və sənaye mallarının böyük həcmdə alınması barədə razılığa gəlmişlər".

Çin mallarına tətbiq olunmuş 25 faizlik rüsumlar qüvvədə qalır. Lakin dekabrın 15-nə planlaşdırılmış rüsum artımı ləğv olunur. "Biz 2020-ci il seçkilərinin nəticələrini gözləmədən dərhal sövdələşmənin ikinci mərhələsi barədə danışıqlara başlayacağıq" - deyə Tramp yazmışdır. Pekin nümayəndələri mətbuat konfransında bildirmişlər ki, saziş dünya bazarlarında əminliyi artırmaq üçün hazırlanmışdır və Çin bazarına ABŞ-ın bir çox mallarının və xidmətlərinin yolunu açır.

Bu il ABŞ-la Çin arasında baş vermiş ticarət müharibəsi dünya iqtisadiyyatında sabitliyin pozulmasına və qlobal artımın ləngiməsinə səbəb olmuşdur.

## ABŞ Nümayəndələr Palatasının komitəsi Trampın impiçmentinə səs verdi



ABŞ Nümayəndələr Palatasının Ədliyyə işləri komitəsi impiçmentlə bağlı iş üzrə Prezident Donald Trampa qarşı irəli sürülmüş ittihamların maddələrinə səs vermişdir. Bu qərarı 23 demokrat konqresmen dəstəkləmişdir. Əleyhinə 17 respublikaçı səs vermişdir.

Tramp xarici dövləti ABŞ siyasətinə müdaxiləyə məcbur etmək məqsədilə səlahiyyətlərindən sui-istifadə etmək, habelə Konqresin tədqiqatına maneçilik törətməkdə ittiham olunur. Hər iki maddə üzrə səsvermə ayrı-ayrı keçirilmişdir.

Ağ ev Ədliyyə işləri komitəsində səsvermənin nəticələrini "ümidsiz oyunbazlıq" kimi qiymətləndirmişdir. Səsvermədən sonra Ağ evin nümayəndəsi Stefani Qrişem bildirmişdir ki, Prezident Senatda və məhkəmədə işə ədalətlə baxılacağına ümid edir.

Gələn həftə Trampa qarşı ittihamlara Nümayəndələr Palatasının plenar iclasında baxılacaq. İttiham qərarının təsdiqlənəcəyi və impiçment elan olunacağı təqdirdə iş baxılmaq üçün Senata veriləcək. Trampın vəzifədən kənarlaşdırılması üçün senatorların üçdə ikisinin səsi lazımdır. Lakin bu ilin əvvəlindən respublikaçılar 100 nəfərlik Senatda 53 yer tutmaqla səs çoxluğuna malikdirlər. Bu səbəbdən Trampın Prezident vəzifəsindən məhrum olunması ehtimalı çox azdır.

## İraqda silsilə partlayışlar törədildi



İraqın Səlahəddin və Diyala vilayətlərində dörd bombanın partladılması nəticəsində 15 nəfər həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Məlumata görə, Səlahəddin vilayətinin Samarra şəhərində "Həşdi Şəəbi" könüllülər dəstəsinin nəzarət etdiyi nəzarət-keçid məntəqəsində minalanmış avtomobil vasitəsilə hücum törədilmişdir. Nəticədə "Həşdi Şəəbi"nin 11 üzvü həlak olmuşdur.

Eyni zamanda vilayətin şimalında yerləşən Kinus kəndinin yaxınlığında yol kənarında yerləşdirilmiş minanın işə düşməsi nəticəsində üç məktəbli həlak olmuşdur.

Diyala vilayətinin Bəhrəz rayonunda minalanmış motosikletin partlaması nəticəsində bir nəfər həlak olmuş, iki nəfər yaralanmışdır.

Bu hücumlara görə hələ ki heç bir qruplaşma məsuliyyəti üzərinə götürməmişdir. Terror aktlarının arxasında İŞİD terrorçu təşkilatının durduğu güman olunur.

## Əfqanıstanda partlayış nəticəsində 10 nəfər həlak oldu



Əfqanıstanın Qəzni əyalətində yol kənarında yerləşdirilmiş bombanın partlaması nəticəsində azı 10 nəfər həlak olmuşdur. Bu barədə Daxili İşlər Nazirliyinin nümayəndəsinə istinadən "Sinxua" agentliyi xəbər verir.

Məlumata görə, terror aktı zamanı 6 nəfər yaralanmışdır. Ölənlər və zərərçəkənlər dinc sakinlərdir. Hadisənin təfərrüatları barədə hələ ki məlumat verilmir.

## Yeni Orleanda kiberhücum üzündən fövqəladə vəziyyət elan olundu

ABŞ-ın Yeni Orlean şəhərinin idarəetmə orqanlarının kompüterləri kiberhücuma məruz qalmışdır. Şəhərin hakimiyyət orqanları fövqəladə vəziyyət rejimi tətbiq etmişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Kompüterlər "şantajçı" virusun hücumuna məruz qalmışdır. Srağagün günorta saatlarında şübhəli fəallıq aşkar olunduqdan sonra əməkdaşlara kompüterləri söndürmək tapşırılmışdır.

Hücumdan sonra heç bir tələb irəli sürülməmiş və kompüterlər təhlükəsizlik tədbiri kimi söndürülmüşdür. Ştatın hakimiyyət orqanları ABŞ Federal Təhqiqatlar Bürosu və Məxfi Xidməti ilə birgə təhqiqat aparır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış, 932-ci qrup məzunları tələbə yoldaşları Durna Şükürovaya anası

**ZÜBEYDƏ XANIMIN**

Oğuz rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8896
Sifariş 4132
Qiyməti 40 qəpik